- More temperament, because they are not indifferent. They take everything at their own expense.

***Talent is demanding***

Seeks:

- To personal growth;
- To a constant forward movement;
- Everywhere to catch;
- To meaningfulness and result;
- To action and choice;
- To self-esteem;
- To ease.

Many companies are not ready to implement a talent management system, primarily because the impact of talent development efforts is not so easy to

measure. It takes years to achieve results. As a result, there is still no clear statistics and observations in systematic approaches to working with talents. When searching for candidates to fill key positions, companies are more oriented to the external labor market, since it is often cheaper to get a ready-made specialist from the market with established skills, abilities and certain experience than to invest time and money in existing employees. Moreover, there is always the possibility that a well-trained employee who has received a certain amount of knowledge and experience will go to a more comfortable place of work.

Companies should understand that by spending large funds on the development of their own employees and implementing programs for the formation and management of the personnel reserve, promoting their own employees, the company will achieve cost reduction, increase the level of motivation of reservists, as well as increase the efficiency of their activities.

For practitioners, there is no unequivocal understanding of the value of talent management; each organization under "talents" understands different things: someone considers individual employees with a particularly pronounced potential, and someone talks about the staff as a whole; some companies claim that “talent” is the abilities given to a person at birth, other organizations consider this to be experience acquired over time.

From the point of view of business processes of companies, the current situation in the field of talent management is characterized by the fact that talented employees are an important asset for solving market problems of companies, as well as an inaccessible resource, and it is necessary to deal with their motivation and development. The method of a detailed approach to the search, selection, motivation, training, development, retention and promotion of an employee on the career ladder is very useful for the effective work of the company.

Today, the talent management strategy is focused on developing the potential of employees. The talent management system can play the role of a tool for optimizing the performance of the employee and the entire company. To develop a specific strategy, a frequent “talent review” is required.

When introducing a talent management system, it is important to start it with a strategic process. When choosing an employee, all factors must be taken into account, since any shortcoming is quite expensive for any company. One of the signs of talent is the ability to grow and develop, therefore, when evaluating an employee, it is important to consider both the current level of competencies and future potential. Any employee is an object of development and training that requires investment, and you need to invest in weekend employees who show effective results.

**Bibliography:**


1. Essential Human Resource Management Practice, Michael Armstrong (http://vcm.qums.ac.ir/Portal/file/?182900/%D9%83%D8%AA%D8%A7%D8%A8-human-resource-management-practice.pdf)
2. Managing Talented People, Alan Robertson, Graham Abbey (http://ebookpedia.co/a856e8/managing-talented-people-by-alan-robertson-graham-abbey.pdf)
3. PwC Express Research 2013: talent and value proposition management for an employee (https://docplayer.ru/46525610-Pwc-ekspress-issledova-nie-2013-upravlenie-talantami-i-cennostnym-predlozheniem-dlya-sotrud-nika.html)
4. Talent on Demand: Managing Talent in an Age of Uncertainty, Peter Cap-pelli (https://onlinelibrary.wiley.com/doi/abs/10.1002/hrm.20308)
5. The War for Talent, Ed Michaels, Helen Handfield-Jones, Beth Axelrod (https://books.google.az/books?id=simZCd_YUC4C&printsec=frontcover&hl=ru&source=gbs_atb#v=onepage&q&f=false)
6. The Essential of Drucker, Peter F. Drucker (https://epdf.pub/the-essential-drucker.html)
7. Hidden Value: How Great Companies Achieve Extraordinary Results with Ordinary People, Charles A. O'Reilly, Jeffrey Pfeffer (https://www.crarj.adm.br/publicacoes/textos_classicos/HIDDEN_VALUE/files/assets/common/downloads/Hidden_Value.pdf)
8. The McKinsey Quarterly: The Online Journal of McKinsey & Co. (http://www.executivesondemand.net/managementsourcing/images/stories/artigos_pdf/gestao/The_war_for_talent.pdf)

UOT 33

# MÜASİR İQTİSADİ ŞƏRAİTDƏ İQTİSADİ ARTIMIN STİMULLAŞDIRILMASI MƏSƏLƏLƏRİ

**Mahir Tapdıq oğlu ABBASZADƏ**

*AMEA İqtisadiyyat İnstitunun doktorantı*
*İqtisad üzrə fəlsəfə doktoru*

## XÜLASƏ

Məqalədə müasir iqtisadi şəraitdə iqtisadi artımın stimullaşdırılması məsələlərinə baxılmışdır. Beynəlxalq təcrübə onu göstərir ki, hər bir ölkədə iqtisadi artımın təmin olunması istiqamətində davamlı olaraq səmərəli tədbirlərin həyata keçirilməsi zəruridir. Məhz iqtisadi artımın davamlı olması aktual məsələlərdən hesab olunur. Məqalədə müasir iqtisadi artımın əsas xüsusiyyətləri geniş tədqiq olunmuşdur. Təhlil göstərir ki, milli iqtisadiyyatın bütün sahələrində iqtisadi inkişafın təmin olunması vacibdir. Bundan başqa məqalədə mövcud problemlər müəyyənləşdirilmiş, onların həlli istiqamətində təklif və tövsiyələr irəli sürülmüşdür

**Açar sözlər:** ümumi daxili məhsul, iqtisadi artım, ixrac imkanı, inteqrasiya, qloballaşma, iqtisadiyyat

# ВОПРОСЫ СТИМУЛИРОВАНИЯ ЭКОНОМИЧЕСКОГО РОСТА В СОВРЕМЕННЫХ ЭКОНОМИЧЕСКИХ УСЛОВИЯХ

## РЕЗЮМЕ

В статье рассматриваются вопросы стимулирования экономического роста в современных экономических условиях. Международный опыт показывает, что каждой стране необходимо принимать эффективные меры для обеспечения экономического роста. Важно, чтобы устойчивый экономический рост был актуален. В статье рассматриваются ключевые особенности современного экономического роста. Анализ показывает, что важно обеспечить экономическое развитие во всех отраслях народного хозяйства. В статье выявляются существующие проблемы и предлагаются предложения и решения для их решения.

**Ключевые слова:** валовой внутренний продукт, экономический рост, экспорт, интеграция, глобализация, экономика

# THE ISSUES OF STIMULATION OF ECONOMIC GROWTH IN THE MODERN ECONOMIC CONDITIONS


## ABSTRACK

The article addresses the issues of stimulating economic growth in modern economic conditions. International experience shows that it is imperative for each country to take effective measures to ensure economic growth. It is important that sustainable economic growth is topical. The article examines the key features of modern economic growth. The analysis shows that it is important to ensure economic development in all sectors of the national economy. In addition, the article identifies existing problems and offers suggestions and solutions for their solution.


**Keywords:** gross domestic product, economic growth, export opportunity, integration, globalisation, economy

Son illər bütün dünyada iqtisadi artımın təmin olunması, davamlı olaraq iqtisadi inkişafın həyata keçirilməsi zəruri hesab olunur. İqtisadi artımın səciyyəsi və dinamikası siyasətçilərin və iqtisadçıların diqqətini daima cəlb etmişdir. Ölkənin iqtisadi həyatı, onun perspektivləri bu artımın dinamikasına və inkişafına aid gedən proseslərdən, milli iqtisadiyyatda aparılan struktur islahatlardan birbaşa asılıdır.

İqtisadi nəzəriyyə iqtisadi artımın bir sıra tsikllərini müəyyən etmişdir, onların sırasında uzundalğalı tsikllər daha böyük əhəmiyyətə malikdir. Bu tsikllər iqtisadi fəallığın uzunmüddətli 50 illik dövrünü əhatə edən rəqsləri ifadə edir və "Kondratyev tsiklləri" (rus iqtisadçısı Nikolay Kondratyevin adı ilə bağlıdır) adını qazanmışdır; normal, yaxud 8-12 ili əhatə edən sənaye tsiklləri və 3-4 ili əhatə edən kiçik tsikllər, yaxud "Kitçin tsiklləri" (onları icad etmiş amerika alimin adıdır) formasında olur. Bu müddət əsas vəsaitlərin tam yeniləşdirilməsi üçün tələb olunan dövrü əhatə edir. İlk tsikllərdə 4 faza və iki nöqtə qeyd olunur: enmə, depressiya, canlanma və istehsal artımı fazaları və pik nöqtəsi və enmə nöqtəsi ayrı-ayrı ölkələrdə mövcud istehsal amilləri və inkişaf şərtləri, həmçinin onların müxtəlif kombinasiyası həmin ölkələrin iqtisadi inkişafını konkret bir nöqteyi-nəzərdən qiymətləndirməyə imkan vermir. Bunun üçün elmi ədəbiyyatda bir sıra göstəricilərdən istifadə edilir [1, s.157]:

- adambaşına düşən ÜDM (ümumi daxili məhsul), ya da MG (milli gəlir);
- milli iqtisadiyyatın sahə strukturu;
- adambaşına düşən əsas məhsul növlərinin istehsalı (ayrı-ayrı ölkələrin inkişaf səviyyəsi);
- əhalinin həyat səviyyəsi və keyfiyyəti;
- iqtisadi səmərəlilik göstəriciləri.

Qeyd etmək lazımdır ki, ölkənin iqtisadi inkişaf səviyyəsi – tarixi anlayışdır. Milli iqtisadiyyatın və dünya birliyinin hər mərhələsi, əsas göstəricilərin tərkibinə müəyyən dəyişiklikləri daxil edir.

İqtisadi artımın səviyyəsini təhlil edərək, aparıcı göstərici kimi adambaşına düşən ÜDM çıxış edir. Bu göstərici, inkişaf etmiş və inkişaf etməkdə olan ölkələrə dair beynəlxalq təsnifatın əsasını qoymuşdur. Belə ki, 90-cı illərin ortalarında inkişaf etmiş ölkələrin sıralarına ildə adambaşına düşən ÜDM-in 6-7 min ABŞ dolları və ondan çox miqdarda paya malik olan ölkələri aid edirdilər.

Bəzi inkişaf edən ölkələrdə (məsələn, Səudiyyə Ərəbistanında) ÜDM-in adambaşına düşən payı çox yüksək səviyyədədir, ancaq başqa göstəricilərin cəminə görə (iqtisadiyyatın sahə strukturu, adambaşına düşən əsas məhsulların istehsal payı və s.) bu ölkələr inkişaf etmiş ölkələrin sırasına daxil edilə bilməz.

Qeyd etmək lazımdır ki, iqtisadi səmərəlilik göstəriciləri ən böyük dərəcədə iqtisadi inkişafı səciyyələndirir, çünki birbaşa ya dolayısı ilə ölkənin əsas və dövriyyə kapitalını, əmək ehtiyatlarının vəziyyətini, keyfiyyətini və səviyyəsini əks etdirir.

Bu kiçik həcmli qrupun göstəricilərinin hesablanma metodikasına və təfsilatlı sadalanmasına diqqət yetirmədən, onlardan əsas olanları qeyd edə bilərik:

- əmək məhsuldarlığı (ümumiyyətlə sənaye və kənd təsərrüfatı üzrə, ayrı-ayrı sahələr və istehsal növlərinə görə);
- ÜDM-in ya da konkret məhsulun bir vahidinin kapital tutumluğu;
- əsas vəsaitlərin bir vahidindən olan fondverimi;
- ÜDM-in ya da konkret məhsulun bir vahidinin materialtutumluğu.

Son illər xüsusi tədqiqatlarda və statistik məlumatlarda Beynəlxalq Valyuta Fondunun (BVF) tərtib etdiyi müqayisəli rəqabətədavamlılıq göstəriciləri daha geniş istifadə edilir. Bu göstəricilər sistemi ölkələrin emal sənayesində olan məsrəf və qiymətlərin müqayisəsi üçün yaradılıb və ən çox inkişaf etmiş ölkələrin müvafiq ortaşəkilli indikatorlarının əsasında hesablanır. Onlar 5 növdədir:

- əmək haqqına çəkilən xərclər (məhsul vahidinə hesablanır);
- iş qüvvəsinə çəkilmiş normalaşdırılmış xüsusi xərclər (məhsul vahidinə hesablanır), yəni bir insan / saata buraxılmış məhsul;
- əlavə edilmiş dəyərin ünsürləri üzrə tam xüsusi xərclərin səviyyəsi, yəni bütün ilkin istehsal faktorların xüsusi xərclərinin göstəriciləri;
- sənayenin topdansatış qiymətlərinin müqayisəli səviyyəsi;
- sənaye mallarının ixrac qiymətlərinin müqayisəli səviyyəsi.

Əlbəttə, bu sistem də ölkənin iqtisadi səmərəliliyini tam səciyyələndirə bilməz, lakin onun bir tərəfi – beynəlxalq səviyyədə rəqabətədavamlılığı – kifayət qədər dəqiq əks edə bilir.

İqtisadi artım iqtisadi inkişafın tərkib hissəsidir. O, öz əksini real ÜDM-in həm mütləq, həm adambaşına düşən göstəricisində tapır. Sürətli, ya da əksinə

sıfırla və hətta mənfi iqtisadi artım heç də həmişə sürətli iqtisadi inkişaf barədə, ya durğunluq haqqında və yaxud iqtisadi deqradasiya barədə xəbər vermir. Buna bir neçə misal gətirmək olar. Ölkə iqtisadiyyatında struktur dəyişikliklər, dəyişilməz və enən tələbin sayəsində bir növlü məhsulların buraxılışının bir səviyyədə dayanması, ya ixtisar olunması digər növ məhsulların sürətli artımı ilə müşahidə oluna bilər. Belə ki, ABŞ-da 80-ci illərdə poladın, kənd təsərrüfatı məhsullarının, yüngül avtomobillərin istehsalı artmırdı, amma, eyni zamanda mürəkkəb məmulatların, məsələn fərdi kompüterlərin buraxılışı artırdı. Lakin kompüterlərin kəmiyyət artımı onların istehsalatının başqa tərəflərini əks etdirmirdi: fərdi kompüterlərin 1981-1988-ci illərdə satışı sayca 1.1 mln. ədəddən 9.5 mln. ədədə qədər, maya dəyərinə görə isə 3.1 mlrd. ABŞ dollarından 27.7 mlrd. ABŞ dollara qədər artmışdır, dollar özü isə bu müddətdə 25% ucuzlaşmışdır. Beləliklə, fərdi kompüterlər ucuzlaşırdı, baxmayaraq ki, onların keyfiyyəti və texniki parametrləri artırdı. İqtisadi artımın kompleks göstəricisini – ÜDM-i hesablayaraq yuxarıda qeyd edilmiş məqamlar ABŞ-ın iqtisadi inkişafın dinamikasının tam şəkildə əks edirilməməsinə gətirmişdir.

Bununla yanaşı bütün mövcud nöqsanları olmaqla iqtisadi artım göstəricisi iqtisadi inkişafın ən çox istifadə edilən meyarı kimi qalmaqdadır. İqtisadi artım həm fiziki (fiziki artım), həm də dəyər ölçüsündə hesablana bilər. Birinci üsul daha etibarlıdır (çünki, o inflyasiyanın təsirini istisna edir), lakin, universal deyil (iqtisadi artım templərinin hesablanması zamanı müxtəlif məmulatların istehsalı üçün ümumi göstəricini müəyyən etmək çətindir). İkinci üsul daha çox istifadə edilir, ancaq onun inflyasiyadan tam şəkildə “təmizlənməsi” həmişə mümkün olmur. Düzdür, bir çox ölkələrin statistikasında makroiqtisadi artım iqtisadiyyat üçün ən çox tələb olunan malların istehsal artımının əsasında ölçülür [2, s.159].

Makroiqtisadiyyat səviyyəsində iqtisadi artım dinamikasının aparıcı göstəriciləri aşağıdakılardır:

- ÜDM-in və MG-in həcm artımı;
- adambaşına düşən ÜDM-in və MG-in artım templəri;
- sənaye istehsalının artım templəri ümumi şəkildə, əsas sahələr üzrə və adambaşına görə.

Ümumiyyətlə, iqtisadi elmi ədəbiyyatlarda dinamikanın hesablanması üçün artım, artım templəri və çoxalma templəri əmsalları istifadə edilir. Artım əmsalı - X aşağıdakı düsturla hesablanır:

$X= T_1/T_0$

Burada: $T_1$ və $T_0$ – müqayisə edilən və tədqiq edilən dövrlər üzrə göstəricilərdir.

Artım tempi artım əmsalının 100 vurulmasına bərabərdir. Çoxalma tempi artım tempindən 100 çıxılmasına bərabərdir. Lakin təcrübədə artım tempi çox hallarda çoxalma tempi kimi başa düşülür.

İqtisadi artımın amilləri qarşılıqlı əlaqədədir. Belə ki, əla işləyən təsərrüfat mexanizmi şəraitində qabiliyyətli sahibkarın idarəçiliyi altında müasir avadanlığın işçilər tərəfindən istifadəsi əməyi artıq dərəcədə məhsuldar edir. Ona görə bu və ya digər iqtisadi artım amilinin xüsusi çəkisini müəyyən etmək olduqca çətindir. Bundan başqa bütün bu iri amillər kompleks səciyyə daşıyır, çoxlu xırda ünsürlərdən ibarətdir və bunun nəticəsində həmin amilləri yenidən qruplaşdırmaq mümkün olur. Belə ki, xarici və daxili iqtisadi ünsürlərə görə xarici və daxili amilləri qeyd etmək olar (məsələn, kapital növləri xaricdən gələnə və daxildə yaradılana bölünür). Həmçinin, faktorların artım (kəmiyyət ya keyfiyyətinə görə) xarakterindən asılı olaraq aşağıdakı ekstensiv amillərə bölünür [3, s.208]:

- cari texnologiyaların səviyyəsini saxlamaq şərti ilə investisiyaların həcminin artırılması;
- məşğul olan işçilərin sayının artırılması;
- xammalın, materialların, yanacağın və s. dövriyyə kapital ünsürlərin istifadə həcminin artırılması.

Artımın intensiv amillərinə aşağıdakılar aiddir:

- elmi-texniki tərəqqinin sürətləndirilməsi (yeni texnikanın və texnologiyaların tətbiq edilməsi);
- işçilərin ixtisaslarının (peşə qabiliyyətinin) artırılması;
- əsas və dövriyyə vəsaitlərinin istifadəsinin yaxşılaşdırılması;
- təsərrüfat fəaliyyətinin daha yaxşı təşkil edilməsinin nəticəsində onun səmərəliliyinin artırılması.

Müvafiq olaraq artımın intensiv amillərinin üstünlüyü olanda intensiv artım haqqında, ekstensiv amillərinin üstünlüyü olanda isə eksentensiv artım barədə deyilir.

Qeyd edək ki, ekstensiv artım şəraitində onun amilləri arasında nisbətin dəyişilməsi nisbətən, eyni qaydada keçir və məhsulun maksimum istehsal həcmi əsasən iqtisadi resursların vəziyyətindən asılı olur. Xüsusən bu, əməyin və kapitalın birləşməsindən və müəyyən dərəcədə elmi-texniki tərəqqidən asılı olur [4, s.69].

Tədqiqat nəticəsində məlum oldu ki, iqtisadi artım bir neçə dolayısı və birbaşa amildən asılı olur. Birbaşa amillərə aşağıdakılar aiddir:

- əmək ehtiyatlarının kəmiyyəti və keyfiyyəti;
- təbii sərvətlərin kəmiyyəti və keyfiyyəti;
- əsas kapitalın həcmi;
- istehsalın texnologiyası və təşkili;
- cəmiyyətdə sahibkar qabiliyyətinin inkişaf səviyyəsi.

Dolayısı amillər – cəmiyyətin iqtisadi artım imkanlarının daha geniş istifadə edilməsi üçün şərait yaradan mühitə deyilir. Bu mühit tələb və təklif amilləri ilə müəyyən edilir:

- bazarda inhisarçılığın azalması;
- iqtisadiyyatda vergi yükünün vəziyyəti;
- bank-kredit sistemin səmərəliliyi;
- ixraca gedən malların genişlənməsi;
- iqtisadiyyatda resursların (əmək, torpaq, maliyyə və s.) yenidən bölünməsi imkanları;
- iqtisadiyyatda gəlirlərin mövcud bölgü sistemi.

Əgər dolayısı amillərin dəyişilməsi əks istiqamətdə gedirsə, eyni şərtlər daxilində iqtisadi artım dayanacaq. Belə ki, qiymətlərin liberallaşmasından sonra istehsal resurslarının kəskin bahalaşması sənaye müəssisələrində məşğulluq və istehsal həcminin səviyyəsinin azalmasına gətirmişdir. İqtisadi artımın dolayısı amillərinə, həmçinin tələb amilləri də aid edilir.

Yuxarıda qeyd edilənlərlə əlaqədar, sabit iqtisadi artım şərtlərinin əsas yaradılma istiqamətləri aşağıdakılardır [5, s.125]:

- əmtəə istehsalın təzadlarını həll edən vahid struktur, investisiya və rəqabət strategiyası;
- qeyri-maddi istehsalın və xidmət sahələrinin geriləməsinin aradan qaldırılmasını təmin edən fəal investisiya-innovasiya və rəqabət strategiyası;
- iqtisadiyyatın ənənəvi sahələrində idxalın əvəz edilməsinin tədricən təmin edilməsi (Azərbaycan şəraitində ilk növbədə yüngül və qida sənayelərində), ilkin emal olunan resurs və xammala dair ixrac payının ixtisar olunması, elmtutumlu malların idxalda xüsusi çəkisinin artırılması və s.;
- inkişaf edən bazar şəraitində iqtisadi maraqların təmin edilməsi ilə sıx bağlı motivasiya mexanizmlərinin istifadəsi.

Qeyd etmək lazımdır ki, Azərbaycan hal-hazırda qarşısına postindustrializasiya vəziyyətinə çatmaq məqsədini qoymalıdır. Çünki bu, dünyanın müasir iqtisadi inkişafının aktual tələbidir. Yaranmış vəziyyətdə, dünyanın inkişaf etmiş ölkələri ilə zəif də olsa müəyyən rəqabət aparmaq üçün hər bir ölkə öz iqtisadi artımını ən yeni texnologiyaların inkişafı və tətbiqinə bağlamalıdır. Azərbaycan üçün bu bir növ böyük bir yarışda irəlidə gedənə çatmaq vəziyyətini xatırladır. Tarixi baxımdan bu məsələdə dünya səriştəsi yoxdur. Dünyanın ən inkişaf etmiş ölkələri – postindustrializasiya mərhələsinin pionerləri qarşılarına – özündən irəlidə gedənə çatmaq məqsədini qoymamışdılar, çünki hamısı nisbətən paralel inkişaf edirdilər. Son illərdə "asiya möcüzəsini" göstərən ölkələr isə (Cənubi Koreya, Tayvan, Çin və s.) ənənəvi aqrar cəmiyyətdən industrial cəmiyyətə keçidi təmin edirdilər, yəni başqa məqsədlərə xidmət edirdilər [6, s.147].

Qeyd etmək lazımdır ki, ölkəmizdə sosial sahədə aparılan uğurlu islahatlar iqtisadi artımın yüksəlməsinə də ciddi təsir etmişdir. Belə ki, 2013-cü ildə ölkə əhalisinin gəlirləri 37562,0 mln. manat olmuşdursa, 2016 və 2017-ci illərdə bu göstəricilər müvafiq olaraq artaraq 45395,2 mln. manat və 49162,9

mln. manat təşkil etmişdir [11]. Qeyd olunanlar əsasən neft-qaz sektorundan əldə olunan gəlirlərin ölkənin sosial-iqtisadi inkişafına daha çox istiqamətləndirilməsi ilə bağlıdır (Cədvəl 1).

**Cədvəl 1.**

**Son illər üzrə ölkəmizdə vətəndaşların (ümumi sosial təbəqələr üzrə) illik gəlirləri (mln. manat)**

| **İllər** | **2013** | **2014** | **2015** | **2016** | **2017** |
|---|---|---|---|---|---|
| Gəlirlər | 37562,0 | 39472,4 | 41738,6 | 45395,1 | 49162,9 |

**Cədvəl 2.**

**Milli iqtisadiyyatda işləyənlərin orta aylıq əmək haqqı**

| | **Hesablanmış orta aylıq əmək haqqı** | |
|---|---|---|
| | **2005-ci ilə nisbətən, faizlə** | **Əvvəlki ilə nisbətən, faizlə** |
| 2005 | 100,0 | 124,3 |
| 2013 | 343,9 | 106,7 |
| 2014 | 359,6 | 104,6 |
| 2015 | 377,8 | 105,0 |
| 2016 | 404,4 | 107,0 |
| 2017 | 427,6 | 105,7 |

Ölkə üzrə milli iqtisadiyyatda işləyənlərin orta aylıq əmək haqqında da ciddi artım templəri qeydə alınmışdır [11]. Belə ki, 2005-ci ilə nisbətən, 2016-cı ildə bu göstərici 4 dəfə, 2017-ci ildə isə 4,2 dəfə artmışdır. Bu da ölkəmizdə milli iqtisadiyyatın bütün sahələrində davamlı olaraq iqtisadi inkişafın təmin olunması ilə bağlıdır (Cədvəl 2).

İqtisadi artımın müasir zamanda – qloballaşma və postindustrializasiya şəraitində - iqtisadi hədəflərin icrasının zaman müddətləri kəskin halda ixtisar olunub. Əgər industrial erasında inkişaf prioritetlərini 30-40 ilə planlaşdırmaq olurdusa və onlara nail olandan sonra aparıcı ölkələr sırasına daxil edilmə təmin edilirdisə, artıq indi bu prioritetlər çox tez dəyişir. Məsələn, dünyada adambaşına düşən kompüterlərin sayına görə ölkə birinci yerə çıxsa da, dünyanın ən yaxşı təyyarə və yaxud telefonlarını icad etsə də, artıq onları istifadəyə verməz-

dən əvvəl məlum ola bilər ki, həmin modellər dünyanın tələbatına tam uyğun gəlmir. Xüsusən bu hal informasiya və kommunikasiya texnologiyalarında müşahidə edilir [7, s.245].

Əvvəllər dövlətlərin iqtisadi siyasətinin əsas hədəfi – resursların cəmlənməsi idi, indi isə mühitə alışma qabiliyyətidir. Postindustrial ölkədə ÜDM-də artıq öncül yeri xidmət sahəsi tutur. İqtisadi artım siyasəti məhz ilk növbədə xidmət sahəsinin inkişafına yönəldilir [8, s.258].

Lakin xidmət sahəsinə edilən vurğu, heç də başqa sahələrin unudulmasını nəzərdə tutmur (məsələn neft-kimya, maşınqayırma, kənd təsərrüfatı sahələrini). Ancaq eyni zamanda, həmin sahələrin inkişaf etdirilməsinin vacibliyini qəbul edərək, qeyd etməliyik ki, bu iqtisadi fəaliyyət növləri çox güman ki, ölkəmizin postindustrial mərhələyə nail olmasında əsas rol oynamayacaqlar. Müasir iqtisadiyyat, əsasən qeyri-industrial cəhət daşıyır və inkişaf etmiş ölkələrdə sənaye və kənd təsərrüfatı sahələrinin ÜDM-də payı cəmi 25% qədər təşkil edir. Odur ki, müasir zamanda Azərbaycan Respublikasının iqtisadi inkişafı zənnimizcə, ilk növbədə yüksək texnologiyaların və "bilik iqtisadiyyatının" təməlini qoyan elmi-texniki potensialın inkişafı ilə uzlaşdırılmalıdır .

Ümumiyyətlə, ölkəmizdə müasir iqtisadi şəraitdə iqtisadi artımın stimullaşdırılması istiqamətində aşağıdakı tədbirlərin həyata keçirilməsi məqsədəuyğundur :

-dayanıqlı iqtisadi artımın təmin olunmasının mühüm elementi olan maliyyə-investisiya fəaliyyətinin ilk növbədə yerli istehsalın həcminin artırılmasına, milli valyutamızın – manatın dəyərinin qorunub saxlanılaraq məzənnəsinin daim möhkəmləndirilməsinə, xüsusən də qeyri – neft sektoru üzrə çox çeşidli məhsullarla xarici ticarətdə müsbət saldonun əldə edilməsinə, eyni zamanda daxili bazarın daha səmərəli qorunmasına istiqamətlənmiş investisiyaların cəlb olunmasının sürətləndirilməsinə yönləndirilməsi [9, s.147];

- əsas investisiya məqsədləri üçün ayrılmış təyinatlı büdcə vəsaitlərinin səmərəli və məqsədyönlü istifadəsinə nəzarət tədbirlərinin daha da möhkəmləndirilməsi və sərtləşdirilməsi;

- dövlətin daxili və xarici borclarının limit həddinin müəyyənləşdirilərək, onlardan tam səmərəli şəkildə istifadə olunması, bu vəsaitlərin müəyyən edilmiş müddətdə geri qaytarılması üzrə müxtəlif qurumların yaranmış öhdəliklərinin vaxtında yerinə yetirilməsinə səmərəli maliyyə nəzarəti təmin edilməsi, eyni zamanda strateji valyuta ehtiyatlarının düzgün formalaşması, idarə olunması və səmərəli istifadəsinin göstərilən proseslərdən kənarda qalmaması;

- tender yolu ilə kənardan cəlb edilmiş xarici investisiyaların, ilk növbədə istehsal məqsədlərinə istiqamətləndirilməsi;

- investisiya məqsədləri üçün ayrılan büdcə resurslarından səmərəli istifadə prosesinin daha da genişləndirilməsi, bu zaman düşünülmüş, perspektivli və uzun məqsədli qaydalara keçilməsi, həmin vəsaitlərin isə əsas etibarilə prioritet

istiqamətli proqramların maliyyələşdirilməsinə yönəldilməsi və iqtisadi artımı təmin edən investisiya layihələrinin həyata keçirilməsi;

- dövlətin maliyyə sisteminin mühüm tərkib hissəsi olan və büdcə gəlirlərinin əsas elementlərindən birini təşkil edən fiskal siyasətin müntəzəm şəkildə modernləşdirilməsi və onun iqtisadi aktivlik səviyyəsinin sürətləndirilməsində oynadığı rolun gücləndirilməsi [10];
- daxili maliyyə resurslarından daha səmərəli istifadəyə yönəldilən tədbirlər sisteminin, o cümlədən maliyyə - bank sektorunun davamlı inkişafı ilə yanaşı digər maliyyə qurumlarının, o cümlədən sığorta şirkətlərinin, maliyyə stimullarının genişləndirilməsi, qarşılıqlı fondlar və digərlərinin təşkil olunmasına xüsusi diqqət yetirilməsi, mövcud ehtiyatların daha çox riskli maliyyə aktivlərinə yatırılmasının qarşısının alınması;
- iqtisadi proseslərdə sağlam rəqabət mühitini təmin edən institutsional şəraitin formalaşdırılması, o cümlədən azad sahibkarlıq fəaliyyətində iqtisadi fəallığın artırılması və daha səmərəli yollarla maliyyə - investisiya resurslarının cəlb olunmasına uyğun mütərəqqi mexanizmin inkişaf etdirilməsi;
- təəssüf ki, ölkə iqtisadiyyatın müəyyən sahələrində hələ də hökm sürən və sağlam olmayan müəyyən inhisarçılıq hallarının aradan qaldırılması, bunlarla yanaşı anoloji proseslərdə sağlam rəqabət mühitinin formalaşdırılması üçün daha əlverişli şəraitin yaradılması;
- dövlətin həyata keçirdiyi modern iqtisadi siyasət tədbirləri, həmçinin mövcud mülkiyyət hüquqlarının tam bərpası və sağlam mühafizə edilməsi yolu ilə, makroiqtisadi sabitliyin və davamlı inkişafın təmin olunması, səmərəli bazar subyektlərinin iqtisadi fəaliyyətlərinin stimullaşdırılması;
- iqtisadi proseslərdə daha səmərəli və məqsədyönlü fəaliyyətin təmin olunması üçün, göstərilən istiqamətlərdə dövlətin zəruri və keyfiyyət xüsusiyyətlərinə əsaslanan müəyyən iqtisadi və inzibatı nəzarət üsullarının tətbiq olunması;
- iqtisadi subyektlərin uzunmüddətli və davamlı inkişafının təmin olunması məqsədilə, onların səmərəli fəaliyyətinin inkişafına təkan verən çevik mexanizmlərin formalaşdırılması;
- sahibkarlıq subyektləri, bununla yanaşı dövlətlə özəl sektor arasında formalaşaraq səmərəli əməkdaşlıq münasibətlərini özündə ehtiva edən işgüzar əlaqələrin daha səmərəli inkişaf etdirilməsi, onlar arasında şəffaflığasöykənən münasibətlərin genişləndirilməsi, bunlarla yanaşı, biznes fəaliyyətinin digər növlərinin, xüsusən də kiçik ailə biznesinin imkanlarından səmərəli istifadə olunması;
- mütərəqqi vergi sisteminin səmərəli tətbiqi prosesində əlverişli beynəlxalq qaydalara əsaslanan keçidin təmin olunması, sığorta və lizinq fəaliyyətinin daha da təkmilləşdirilməsi, modern üsullar və qaydaların tətbiqi hesabına, baş verə biləcək izafi maliyyə - istehsal məsrəflərinin azaldılması və s.

**Ədəbiyyat:**

1. Qənbərov F.Ə. Xarici iqtisadi əlaqələr və iqtisadi artım. Bakı: Elm, 2012, s.251
2. Nuriyev Ə.X. Azərbaycanda iqtisadi inkişaf və modernləşmə siyasətinin konseptual əsasları. Bakı: Avropa, 2013, s. 369
3. Hüseynov T.H. Azərbaycanın milli iqtisadi inkişaf modeli: nəzəriyyə və praktika. Bakı: Elm, 2015, s. 466
4. Müzəffərli (İmanov) N.M. İqtisadiyyatın sosialyönlüyü sağçı və solçu sistemlərdə. Bakı: Şərq – Qərb, 2014, s. 272
5. Prof. Dr. Haydar Baş. Milli iqtisadi model. Bakı: BDU nəşriyyatı, 2005, s. 306
6. Институциональные основы экономического роста (под редакцией член корреспондент РАН Дынкина А.А). Москва: Инфра-М, 2002, с. 295
7. Лавров Е.И., Капогузов Е.А. Экономический рост: теории и проблемы (учебное пособие). Омск: ОмГУ, 2006, с. 214
8. Мишулин Г.М., Стягун А.В. Экономический рост: факторы, источники, механизмы (монография). Москва: ЗАО издательство «Современная экономика и право», Краснодар: Изд. ФГБОУ ВПО «КубГТУ», 2012, с. 212
9. Handbook of Economic Growth. Amsterdam, Netherlands, United States. Elsvier Sciense $ Technology. Jan 2006, 1138 p.
10. www. president.az/articles/22480/ Azərbaycanın perspektiv inkişafı
11. www. stat.gov.az/iqtisadi inkişaf/2017

**UOT330.811**

# İNVESTİSİYA LAYİHƏLƏRİNİN QİYMƏTLƏNDİRİLMƏSİ

**Aynur Həmidağa qızı MƏNƏFLİ**

*Axundov adına Milli Kitabxana*

*aynurmanafli220@gmail.com*

## XÜLASƏ

Məqalədə ümumi investisiya anlayışı, həmçinin investisiya layihələri və onların qiymətləndirilməsi təhlil olunur. İnvestisiya anlayışı iqtisadiyyat elminin geniş və əsas qollarından biridir. Həmçinin investisiya layihələri kənd təsərrüfatı layihələri ilə əlaqələndirilmişdir. Məlumdur ki, kənd təsərrüfatı Azərbaycan iqtisadiyyatının mühüm sahələrindən biridir. Kənd təsərrüfatı investisiyalarının nəticələri uğurla başa çatmış və bu layihələr yüzlərlə kənd və rayonları əhatə etmişdir. Çoxsaylı kənd təsərrüfatı layihələri həyata keçirilmiş və onların iqtisadiyyata təsiri müsbət nəticələr vermişdir. AzKİL – in uğurla həyata keçirilməsi onun icra vaxtının daha da uzadılmasına səbəb olmuşdur. “Rayonların Sosial – iqtisadi inkişafının dövlət proqramları”da kənd və rayonların vəziyyətinin yaxşılaşdırılmasına yaxından kömək etmişdir. AzKİL və digər bu kimi proqramlar əhalinin rifahının yaxşılaşdırılmasına yönəlmiş və Azərbaycanda kənd təsərrüfatı sahəsini inkişaf etdirmək məqsədinə yönəlmişdir.

**Açar sözlər:** AzKİL, investisiya, investisiya layihələri, kənd təsərrüfatı**,** layihələr

## ОЦЕНКА ИНВЕСТИЦИОННЫХ ПРОЕКТОВ

## РЕЗЮМЕ

В статье анализируется общая инвестиционная концепция, а также инвестиционные проекты и их оценка. Инвестиционная концепция является одной из самых широких и важных отраслей экономики, а также инвестиционные проекты связаны с сельскохозяйственными проектами. Известно, что сельское хозяйство является одной из важных сфер экономики Азербайджана. Результаты сельскохозяйственных инвестиций были успешно завершены, и эти проекты охватили сотни сел и районов. Было реализовано множество сельскохозяйственных проектов, и их влияние на экономику дало положительные результаты. Помогло улучшить положение сел и районов в «Государственных программах социально-

экономического развития регионов». AzKIL и другие аналогичные программы, направленные на повышение благосостояния населения и направленные на улучшение аграрного сектора в Азербайджане.

**Ключевые слова:** AzKİL, инвестиции, инвестиционные проекты, сельское хозяйство, проектов

## EVALUATING OF INVESTMENT PROJECTS

## ABSTRACT

The article analyzes the general investment concept, as well as the investment projects and their evaluation. Investment concept is one of the broadest and most important branches of economics. Also, investment projects are linked to agricultural projects. It is known that agriculture is one of the important spheres of Azerbaijan's economy. The results of agricultural investments have been successfully completed and these projects have covered hundreds of villages and districts. Numerous agricultural projects have been implemented and their impact on the economy has yielded positive results. has helped to improve the situation of villages and districts in "State programs of socio-economic development of regions". AzKIL and other similar programs aimed at improving the welfare of the population and aimed at improving the agricultural sector in Azerbaijan.

**Keywords:** AzKIL, investment, investment projects, agriculture, projects

İnvestisiya (latınca "invest" sözündən olub, tərcüməsi "geyindirirəm" mənasını verir) mənfəət gəlir və ya müəyyən sosial səmərə əldə olunması məqsədi ilə və yaxud digər fəaliyyət növləri obyetklərinə uzun müddətə qoyulan maliyyə vəsaitindən, habelə maddi və intellektual sərvətlərdən ibarətdir. Belə vəsait və sərvətlərə aşağıdakılar aid olunur:

- Pul, məqsədli bank əməliyyatları, kreditlər, paylar, səhmlər və başqa qiymətli kağızlar
- Daşınan və daşınmaz əmlak (binalar, qurğular, avadanlıq və başqa maddi sərvətlər)
- Müvafiq qayda da rəsmiləşdirilmiş elmi – təcrübi və digər intellektual sərvətlər
- Bu və ya digər istehsal növünün təşkili zəruri olan ancaq patentləşdirilməmiş, texniki sənədləşdirmə, vərdiş və istehsalat təcrübəsi kimi tərtib edilmiş texniki, texnoloji, kommersiya və digər biliklərin məcmusu

- Torpaqdan, sudan və digər təbii ehtiyatlardan, binalardan, qurğulardan, avadanlıqlardan istifadə hüquqları, habelə müəlliflik hüququndan irəli gələn başqa əmlak hüquqları
- Başqa sərvətlər

Maliyyə baxımından investisiya - mənfəət (fayda) əldə edilməsi məqsədi ilə iqtisadi (təsərrüfat) fəaliyyətə yönəldilən bütün növ aktivlərdir. İqtisadi baxımdan investisiya - əsas (müəyyən hallarda hətta dövriyyə) fondlarının yaradılmasına, genişləndirilməsinə, yenidən qurulmasına və rekonstruksiyasına çəkilən xərclərdir.

Mövcud qanunvericilikdə investisiya fəaliyyətinin maliyyələşdirilməsi mənbələri kimi aşağıdakılar nəzərdə tutulmuşdur:

- Şəxsi (xüsusi) maddi və intellektual sərvətləri, maliyyə ehtiyatları (mənfəət, amortizasiya ayırmaları, pul vəsaitləri, fiziki və hüquqi şəxslərin əmanətləri)
- İnvestorun borc maliyyə vəsaitləri (bank kreditləri, istiqrazlar və digər vəsaitlər)
- Büdcədən və büdcədənkanar fondlardan məqsədli investisiya ayırmaları
- Xarici hüquqi və fiziki şəxslərin investisiya ayırmaları

İnvestisiya layihəsi texniki – iqtisadi əsaslandırma və ya biznes – plan formasında işlənə bilər. İnvestisiya layihəsinin texniki – iqtisadi əsaslandırılması müəyyən olunmuş rentabellik səviyyəsində investisiyanın həyata keçirilməsinin texniki, iqtisadi, ekoloji və maliyyə imkanlarının tədqiqidir.

İnvesitiya layihəsinin biznes – plan – investisiya layihəsinin bütün inkişaf etmiş ölkələrdə qəbul olunmuş təqdimat formasıdır.

İnvestisiya layihələrinin səmərələliyinin təhlili üç hissədən ibarətdir: ümumiqtisadi, texniki – iqtisadi və maliyyə təhlili

İnvestisiya layihələri müxtəlif maliyyələşdirmə mənbələri və imkanları, texnoloji və təşkilatı təminat, realizasiya müddəti və s. cəhətdən xarakterizə oluna bilər.

İnvestisiya layihələrinin qiymətləndirilməsində vaxt amilinin nəzərə alınıb – alınmamasından asılı olaraq qiymətləndirmə üsulları iki qrupa bölünür.

1. Diskontlaşdırılmış qiymətləndirilməyə əsaslanan üsullar
   a. İnteqral səmərə (xalis cari dəyər göstəricisi)
   b. Rentabellik norması (daxili rentabellik norması)
   c. Rentabellik indeksi
2. Mühasibat uçotuna əsaslanan üsullar
   a. İnvestisiyanın ödənmə müddəti
   b. İnvestisiyanın səmərəlilik əmsalı

İnvestisiya layihəsinin inteqral səmərəsi üsulunun əsasını ilkin investisiya məbləğinin proqnozlaşdırılmış nağd pul axınının məbləği ilə müqayisə edilməsi təşkil edir.

İnvestisiyanın daxili rentabellik norması dedikdə inteqral səmərəni sıfra bərabərləşdirən diskontlaşdırma əmsalının qiyməti başa düşülür.

İnvestisiyanın rentabellik indeksi nisbi göstəricidir və xərc vahidinin payına düşən gəlirin səviyyəsini ifadə edir. Bu metodla investisiyaya sərf olunan vəsaitdən əldə edilicək gəlirin çox və ya az olduğu müəyyən edilir.

İnvestisiyanın ödənmə müddətinin hesablanması metodu həm sadə, həm də geniş istifadə olunan üsuldur. Əgər investisiyadan gəlirlər illər üzrə bərabər paylanıbsa illik xərcləri gəlirlərin həcminə bölmək lazımdır. Mənfəətin illər üzrə qeyri – bərabər paylandığı hallarda isə ödənmə müddəti investisiya qoyuluşunun məbləğindən illik gəlirləri ilbəil çıxmaq yolu ilə tapılır.

İnvestisiyanın səmərəlilik əmsalının hesablanması metodunun iki xüsusiyyətini göstərmək lazımdır. Onlardan birincisi gəlirlərin diskontlaşdırılmasının tələb olunmamasından, ikincisi isə gəlirlərin xalis mənfəət göstəricisi ilə xarakterizə edilməsindən ibarətdir.

İnvestisiya layihəsini seçərkən onu qiymətləndirmək üçün aşağıdakı göstəricələrə əsaslanmaq lazımdır:

- Layihənin daxili rentabellik norması
- Layihə “müəllifinin” qoyduğu investisiyanın layihənin ümumi məbləğində xüsusi çəkisi
- Layihənin tətbiqinin ətraf mühit üçün təhlükəsiz olmasının təmin edilməsi

İnvestisiya qoyuluşunun həyata keçirilməsi haqqında qərarın qəbul olunmasına həm daxili həm də xarici amillər təsir göstərir. Həmin amillərə aşağıdakılar aid edilə bilər:

- Makroiqtisadi şərait
- Tələbin səviyyəsinin dəyişməsi prosesi
- Təklifin səviyəsinin dəyişməsi prosesi

Azərbaycanda ipəkçiliyin inkişaf etdirilməsinin dünya praktikasında özünü səmərəli təşkilat forması kimi doğrultmuş aqrar-sənaye klasterləri yaradılması yolu ilə həyata keçirilməsi, baramaçılığın və ipək sənayesinin inkişafında müasir texnologiyalardan istifadədir. Eləcə də baramaçılıq infrastrukturunun maddi-texniki təchizat səviyyəsinin müasir tələblərə uyğunlaşdırılması, mülkiyyət formasından asılı olmayaraq ipəkçilik təsərrüfatları üçün bərabər imkanların yaradılması vacibdir. Dövlət, özəl və bələdiyyə mülkiyyətinə əsaslanan ipəkçilik təsərrüfatlarının fəaliyyətinin tənzimlənməsi üçün müəyyən olunmuş qaydaların vahidliyi də prinsiplərə daxildir. Bundan başqa, ipəkçilik sahəsinə dövlət dəstəyinin ünvanlılığı - ipəkçilik sahəsində kiçik və orta sahibkarlıq subyektlərinin fəaliyyətinin dəstəklənməsi, ipəkçilik təsərrüfatlarının özünüma-

liyyələşdirmə əsasında işləməsinin təmin edilməsi - intensiv metodlar əsasında məhsuldarlığın və ümumi məhsul buraxılışının artırılması, habelə, "dərin istehsal" üsulunun tətbiq olunması yolu ilə baramaçılığın və ipəkçiliyin gəlirli fəaliyyət növünə çevrilməsi, sahənin inkişafına yönəldilmiş investisiyaların özünü ödəməsi və bununla da sahənin özündə inkişaf potensialının formalaşmasını göstərmək olar. Sahənin inkişaf etdirilməsi üçün tələb olunan resurslar və əldə ediləcək nəticələrə dair Cost & Benefit təhlili də hazırlanıb. Təhlilə görə, xərclər (cost), əsasən, kənd ərazilərində infrastrukturun inkişaf etdirilməsi ilə bağlı xərclər, ipəkçilik məhsulları istehsalı ilə məşğul olan təsərrüfatların yaradılmasının stimullaşdırılmasına yönəldilən vəsait, ipəkçiliyin maddi-texniki təchizatının yaxşılaşdırılması ilə bağlı xərclərdir. Əkinəyararlı torpaq sahələrinin tut bağlarının salınmasında istifadəsi, tut bağlarının suvarma şəbəkəsinin təkmilləşdirilməsinə çəkilən xərclər, elmi tədqiqatların səmərəliliyinin artırılmasına maliyyə vəsaitinin ayrılması, ölkədə və xarici ölkələrin müvafiq tədris və elmi tədqiqat müəssisələrində zəruri ixtisaslar üzrə müasir bilik və bacarıqlara malik kadr hazırlığının təşkil olunması da buraya daxildir. Faydaya (benefit) gəldikdə isə ipəkçiliklə məşğul olan kiçik və orta sahibkarlıq subyektlərinin yaranması, barama və ipək məmulatları istehsalının artması və sahədə rəqabətin güclənməsi, toxuculuq sənayesinin inkişafı ən vacib məqamlardandır. Bundan başqa, ipəkçiliyin texnoloji strukturunun yenilənməsi və müasirləşməsi, digər sənaye sahələri üçün tələb olunan yerli ipək xammal təminatı, kənd ərazilərinin infrastruktur təminatının yaxşılaşması və sənayeləşməsi, yeni tut bağları salınması hesabına ekoloji vəziyyətin yaxşılaşdırılması, ipəkçiliyin elmi potensialının artırılması, kənd ərazilərində məşğulluğun səviyyəsinin artırılması da bu sahənin inkişaf etdirilməsində önəmlidir. Azərbaycan hökuməti ölkədə aqrar bölməni daha da inkişaf etdirmək, fermerlərə dəstək vermək, infrastruk turları müasir standartlara uyğun qurmaq üçün kəndlərimizdə müxtəlif layihələri həyata keçirir. Cənab İlham Əliyevin aqrar sahəyə aid sərəncamları, verdiyi tapşırıqlar, dövlət başçısının diqqət və qayğısı kənd təsərrüfatının dinamik inkişafını təmin etmişdir. Kəndlərimizdə həyata keçirilən layihələrə həm hökumət özü maliyyə vəsaiti ayırır, həm də beynəlxalq təşkilatları bu işə cəlb edir. Belə uğurlu layihələrdən biri də "Azərbaycan Kənd İnvestisiya Layihəsi"dir. Zaman keçdikcə bu layihəyə əlavələr olmuş və onlar ayrı-ayrı mərhələləri əhatə etmişlər.

Layihənin ilkin icra dövrü 23.09.2004 – 31.03.2009-cu illəri əhatə etmiş və nəticələri uğurlu olmuşdur.

Belə ki, layihənin infrastruktur komponenti çərçivəsində icmaların seçimi əsasında 340 kənddə mikrolayihələr həyata keçirilib tamamlanmışdır. Mikrolayihələrin icrasından 910 min nəfər kənd sakini bəhrələnmişdir. Layihə ilə əlaqədar Azərbaycanın kəndlərindən, fermerlərimizdən, bələdiyyə təşkilatların-

dan hökumətimizə saysız-hesabsız müraciətlər edilmiş, bu layihənin davam etdirilməsi və əlavə maliyyə vəsaiti ayrılması xahiş olunmuşdur.

Nəticədə "Azərbaycan Kənd İnvestisiya Layihəsi üçün Əlavə Maliyyələşdirmə həyata keçirilmiş, onun ikinci icra dövrü 31.03.2012-ci ilədək uzadılmışdır. Layihənin nəticələri çox uğurludur. İnfrastruktur komponenti çərçivəsində icmaların seçimi əsasında 302 mikrolayihə həyata keçirilib tamamlanmışdır. Bunlardan 192-si yol bərpası, 20-si elektriksisteminin bərpası və genişləndirilməsi, 35-i içməli su təminatı, 19-u suvarma su təminatı, 5-i tibb məntəqəsinin tikintisi, 6-sı məktəbin təmiri, 1-i məktəbin tikintisi, 3-ü məktəbin istilik sisteminin quraşdırılması, 16-sı drenaj sisteminin bərpası və 5-i icma abadlaşdırılması mikrolayihələri olmuşdur. 2005-ci ildən rəsmən fəaliyyətə başlayan, Azərbaycan hökuməti ilə Dünya Bankı və daha sonra Beynəlxalq Yenidənqurma və İnkişaf Bankı arasında olan sazişlərə əsasən həyata keçirilən "Azərbaycan Kənd İnvestisiyaları Layihəsi" (AzKİL) rayonların potensialından faydalı istifadə etməklə sahibkarlığın gücləndirilməsi və iqtisadiyyatın dinamik inkişafı, yaşayış səviyyəsinin yaxşılaşdırılması ilə iqtisadi inkişafa nail olmaq kimi məqsədləri daşıyan, "Azərbaycan Respublikasının 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"na və "2008-2015-ci illərdə Azərbaycan Respublikasında Yoxsulluğun Azaldılması və Davamlı İnkişaf üzrə Dövlət Proqramı"na, eləcə də dövlət tərəfindən müəyyən olunmuş iqtisadi inkişaf strategiyasının həyata keçirilməsinə yaxından dəstək verir və respublikanın bütün kənd rayonlarını əhatə edir. Əgər AzKİL adı çəkilən birinci proqrama konkret olaraq daha çox sosial inkişaf sahəsində dəstək verirdisə, ikinci proqrama isə kənddə yoxsulluğun azaldılmasına və davamlı iqtisadi inkişafına daha yaxından dəstək verir. Belə ki, fəaliyyəti və dövlət proqramlarına yüksək səviyyədə göstərdiyi dəstək Azərbaycan hökuməti tərəfindən dəfələrlə yüksək qiymətləndirilən AzKİL hazırda gəlir gətirən layihələri ilə kənd əhalisi arasında işsizliyin və şəhərə axının, qismən də olsa, azaldılmasına səbəb olur. Kənd Təsərrüfatı Nazirliyinin bilavasitə rəhbərliyi və nəzarəti altında icra olunan "Azərbaycan Kənd İnvestisiya Layihəsi" Azərbaycanın kənd təsərrüfatının inkişafında, bütövlükdə isə kəndlərimizin sosial-mədəni həyatında olduqca mühüm bir dövlət dəstəyidir.

**Ədəbiyyat:**

1. Seyidov A. “Baramaçılıq və ipəkçilik gəlirli fəaliyyət növünə çevrilə bilər” // Palitra, 2016, 19 aprel, s.10
2. Hüseynov T.Ə. Firmanın iqtisadiyyatı. B. 2009, s. 586
3. Əsgərov S. "Azərbaycan Kənd İnvestisiya Layihəsi"nin icrası uğurla davam etdirilir // Respublika. 2014, 11 aprel, s. 6
4. Mammadov G. Agrarian policy of Heydar Aliev in Azerbaijan. B. 2013, 333p.
5. Hüseynov T.H. Azərbaycanda investisiyalar: gəlirlər, investisiyalar, sənayeləşdirmə, məşğulluq. B. 2009. s. 378
6. Məmmədov M.M. İnvestisiya layihələri üzrə biznes–plan. B. 2000. s.140

**UOT 33**

# FOREIGN INVESTMENTS AND THE ANALYSIS OF THEIR SIGNIFICANCE IN THE COUNTRY'S ECONOMY

**Nigar Eldar qızı MƏMMƏDLİ**

*Western Caspian University*

*Management and Tourism*

**SUMMARY**

The aim of this research is to identify Azerbaijan's role in the investment export process and identify development directions.

The objectives of the research are:

- Defining the process of capital export development;
- To study the features of capital export in different countries;
- Identify the role of capital exports in the context of the need for development in the non-oil sector;
- Determine the prospects for the implementation of capital exports in Azerbaijan.

The scientific innovation of the research is the development that Azerbaijan will provide as a capital-exporting country. The scientific novelty of the case is:

- Features of capital export in different countries were studied;
- Analyzed the process of capital export in Azerbaijan;
- New tendencies in the area of capital export were studied in Azerbaijan;
- Defined the role of capital exports in the context of the need to develop the non-oil sector;
- Perspectives on the realization of capital export in Azerbaijan are defined.

**Key words:** investment, international trade, capital flow

# XARİCİ İNVESTİSİYALAR VƏ ONLARIN ÖLKƏ İQTİSADİYYATINDAKI ƏHƏMİYYƏTİNİN TƏHLİLİ


## XÜLASƏ

Tədqiqatın məqsədi investisiya ixracı prosesində Azərbaycanın rolunun müəyyən edilməsi və inkişaf istiqamətlərinin təyin edilməsidir.

Tədqiqatın vəzifələri aşağıdakılardan ibarətdir:

- Kapital ixracının inkişaf prosesini müəyyənləşdirmək;
- Müxtəlif ölkələrdə kapital ixracının xüsusiyyətlərini araşdırmaq;
- Qeyri - neft sektorunda inkişaf etdirilmə zəruriliyi kontekstində kapital ixracının rolunu müəyyənləşdirmək;
- Azərbaycanda kapital ixracının reallaşdırılması perspektivlərini təyin etmək.

Tədqiqatın elmi yeniliyini Azərbaycanın kapital ixrac edən ölkə kimi təmin edəcəyi inkişaf təşkil edir. İşin elmi yeniliyi aşağıdakılardan ibarətdir:

- Müxtəlif ölkələrdə kapital ixracının xüsusiyyətlərini araşdırılmışdır;
- Azərbaycanda kapital ixracının gediş prosesini təhlil edilmişdir;
- Azərbaycanda kapital ixracı sahəsindəki yeni meylləri araşdırılmışdır;
- Qeyri - neft sektorunun inkişaf etdirilməsi zəruriliyi kontekstində kapital ixracının rolunu müəyyənləşdirilmişdir;
- Azərbaycanda kapital ixracının reallaşdırılması perspektivləri təyin edilmişdir.


**Açar sözlər:** investisiya, beynəlxalq ticarət, kapital axını

# ИНОСТРАННЫЕ ИНВЕСТИЦИИ И АНАЛИЗ ИХ ЗНАЧЕНИЯ В ЭКОНОМИКЕ СТРАНЫ


## РЕЗЮМЕ

Цель этого исследования - определить роль Азербайджана в процессе экспорта инвестиций и определить направления развития.

Цели исследования:

- Определение процесса развития экспорта капитала;
- Изучить особенности вывоза капитала в разных странах;
- Определить роль экспорта капитала в контексте необходимости развития в ненефтяном секторе;
- Определить перспективы реализации экспорта капитала в Азербайджане.

Научная инновация исследования - это развитие, которое Азербайджан предоставит как страну-экспортер капитала. Научная новизна кейса заключается в:

- Изучены особенности вывоза капитала в разных странах;
- Проанализирован процесс вывоза капитала в Азербайджан;
- В Азербайджане изучены новые тенденции в сфере вывоза капитала;
- Определена роль экспорта капитала в контексте необходимости развития ненефтяного сектора;
- Определены перспективы реализации экспорта капитала в Азербайджане.

**Ключевые слова:** инвестиции, международная торговля, движение капитала

## INTRODUCTION

The Azerbaijani economy is currently experiencing a rise. It is safe to say that the economic potential of our country has the potential to carry out serious projects outside the country. From this point of view, we can say that from the time of independence to the present day, economic development can shift from resource import to resource export and succeed in this area. Thus, during the economic boom, export of capital becomes more efficient. The reason for this is that during the economic boom, employment in the country reaches a high point, and the decline in investment prevents excessive development of the business. Therefore, capital export policies should be pursued in such a way that employment does not decline and national income declines.

• повышение финансовой грамотности специалистов, занятых в данной сфере, с целью последующего формирования грамотного аппарата кадров [3].

За период 2016-2020 гг. предусматривается создание финансовой системы, которая будет включать здоровые банки, полностью функционирующие финансовые рынки, систему управления рисками, адаптированную к стандартам Базель III, а также более эффективные и оцифрованные процессы и высококвалифицированный рабочий персонал.

Для достижения целей, намеченных на 2025 г. и на последующий период, в вузах и учебно-тренировочных центрах страны будет совершенствоваться процесс обучения и подготовки кадровой смены с учетом последних тенденций, связанных с оцифровкой в финансовом секторе.

Таким образом, сектор финансовых услуг до 2025 г. будет организован из сильных и диверсифицированных финансовых институтов, благодаря чему прогнозируется стабильный рост и доходность данного сектора. Одновременно будет зафиксировано ускорение процессов консолидации в банковском секторе с параллельным снижением разницы меж-

ду банками и финансовыми показателями. Результатом подобных процессов станет расширение базы банков, диверсификация портфеля услуг и создание новых небанковских финансовых институтов. Кредитные продукты, которые будут дополнительно предложены новыми небанковскими финансовыми институтами, создадут альтернативные доступы к потребительским кредитам и усилят конкурентоспособность в данном секторе. Будут предложены новые виды кредитов и доля корпоративных клиентов. Рынки акций и облигаций в Азербайджане до 2025 г. достигнут нового уровня эффективного функционирования. Совершенствование механизмов оценки кредитных рисков, скоринговых моделей, структуры корпоративного управления и процессов управления рисками с учетом требований международных стандартов повысят способность управления рисками в финансовых институтах [4].

Целевой взгляд, установленный на период после 2025 г., заключается в формировании привлекательного для зарубежных инвесторов и конкурентоспособного на региональном уровне финансового сектора. Для достижения целей, установленных в целевом взгляде на период после 2025 г., будет сформирована банковская система, характеризующаяся высокой операционной эффективностью, доходностью и значительной оцифровкой проводимых операций. При этом будут предложены банковские продукты, нацеленные на более инновационного клиента, включая инвестиционные продукты.

Благодаря повышению прозрачности на финансовых рынках и окончательному формированию сектора финансовых услуг в долгосрочной перспективе ожидается привлечение большего числа зарубежных инвесторов, вестернизация «ноу-хау», в частности, передовым опытом в сфере обработки данных, внедрения совершенной системы управления рисками и представления широкого ассортимента услуг.

По прогнозам специалистов посредством точного следования Стратегической Дорожной карте, уровень обслуживания банков до 2025 г. будет приведен в соответствие с передовыми международными стандартами [5]. То есть, азербайджанский сектор финансовых услуг в региональном масштабе будет не только конкурентоспособным, но и будет являть пример для соседних финансовых рынков.

Вследствие реализации приоритетов в секторе финансовых услуг в 2020 г. конкретно прогнозируется: рост реального ВВП до 750 млн. azn. и открытие 1600 дополнительных рабочих мест. В этой краткосрочной перспективе планируется установление основных целевых индикаторов: повышение прибыльности банковского сектора по сравнению с 2015 г. в 7 раз. На фондовой бирже до 2020 г. ожидается дополнительный листинг пяти специализированных компаний важнейших секторов. Отношение

кредитов к ненефтяному ВВП (финансовая глубина) по прогнозам составит 60%. Коэффициент нерабочего кредита понизится до 8%; будет достигнута страховая пенетрация (отношение страховых взносов к ненефтяному ВВП). А, самое главное, повысится устойчивость финансовой системы к внутренним и внешним шокам; управление рисками станет более совершенным и регулируемым; усилится инфраструктура финансовой системы и повысится ее потенциал развития.

С целью успешной реализации Стратегической Дорожной Карты посредством необходимых инструментов, процессов и т.д. будут проведены мониторинг и ее оценка, в ходе проведения которых особое внимание будет уделено исполнению мероприятий, индикаторам и конкретным показателям, достигнутым по соответствующим приоритетам, а также соответствие установленным срокам исполнения. Мониторинг и оценка будут проведены на основе правил, разработанных с учетом международной методологии.

Финансирование осуществления намеченных мер предусматривается за счет средств государственного бюджета, Центрального Банка, внебюджетных фондов, Национального Фонда Поддержки Предпринимательства и других кредитных и инвестиционных организаций. А, также за счет средств местных бюджетов, местных учреждений, предприятий и организаций, вне зависимости от формы собственности, прямых иностранных инвестиций, рынка ценных бумаг, кредитов банковской системы страны, кредитов международных организаций и иностранных государств, грантов, технической помощи и за счет иных источников, не запрещенных законодательством.

С целью обеспечения наиболее эффективного расходования финансовых средств по установленным приоритетным целям, бюджеты будут составлены с учетом соответствующих показателей. Значительная часть необходимых финансовых средств будет обеспечена путем реструктуризации существующих бюджетов, а также совместными усилиями финансирования частного сектора и отдельных инвесторов [6].

Однако нельзя забывать, что достижение качественных модернизаций и прогнозов, как в целом в экономике Азербайджанской Республики, так и в её финансово-кредитном секторе, возможно лишь благодаря точному следованию Стратегии Дорожной Карты развития.

**Литература:**


1. Maliyyə xidmətlərinin inkişafına dair Strateji Yol Xəritəsi açıqlanıb/ http://iqtisadiislahat.org/news/maliyye_xidmetlerinin_inkisafina_dair_strateji_yol_xeritesi_aciqlanib-157/ Tarix: 14 Dekabr 2016
2. Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritələrinin təsdiq edilməsi haqqında /http://www.e-qanun.az/framework/34254
3. Milli iqtisadiyyatın inkişafı üzrə strateji yol xəritəsi / http://a-r.az/az/page/82
4. Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi/ Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli Fərmanı ilə təsdiq edilmişdir. https://azertag.az/store/files/untitled%20 folder/_STRATEJI%20YOL%20XERITESI_.pdf
5. Azərbaycan Respublikasında maliyyə xidmətlərinin inkişafına dair Strateji Yol Xəritəsi /https://azertag.az/store/files/news /MALIYYE%20STRATEJI %20 YOL.pdf
6. Feyziyev C. Strateji Yol Xəritəsi: Milli iqtisadiyyatın inkişafında yeni dönəm/ http://modern.az/az/news/121075#gsc.tab=0/ Tarix: 27.12.2016

**UOT 338.48**

# AZƏRBAYCANDA BEYNƏLXALQ OTEL VƏ MEHMANXANA ŞƏBƏKƏLƏRİNİN FƏALİYYƏT PERSPEKTİVLƏRİ

**Xəyyam Elşən oğlu ƏHMƏDLİ**

*Qərbi Kaspi Universiteti*

*ahmadov0062@gmail.com*

## XÜLASƏ

Turizm sənayesinin inkişafında mehmanxana şəbəkələri böyük önəm kəsb edir. Məqalədə Azərbaycanda mehmanxana şəbəkələrinin tarixinə nəzər salınmış, qurulduğu vaxtdan bugünə qədər olan inkişafı nəzərdən keçirilmişdir. Şəbəkə otellərinin turizm sənayesinə verdiyi fayda araşdırılmışdır və mövcud otel şəbəkələri haqqında məlumat verilmişdir. Azərbaycanda fəaliyyət göstərməyən, lakin fəaliyyəti üçün perspektiv olan otellərin adları qeyd olunmuşdur.

**Açar sözlər:** mehmanxana, otel, otel şəbəkəsi, turizm, turizm sənayesi

## ПЕРСПЕКТИВЫ РАБОТЫ МЕЖДУНАРОДНЫХ ОТЕЛЕЙ В АЗЕРБАЙДЖАНЕ

## РЕЗЮМЕ

Отельные сети играют большую роль в развитии туристической промышленности. В данной статье рассматривается история и развитие отельных сетей в Азербайджане со времен их создания до сегодняшних дней. Так же исследуется польза отельных сетей для туристической промышленности и дается информация по поводу существующих отельных сетей, перечисляются названия отелей, на данный момент не действующих в Азербайджане, однако имеющих перспективу для работы здесь.

**Ключевые слова:** отели, отельные сети, туризм, туристическая промышленность.

# PERSPECTIVES OF INTERNATIONAL HOTEL AND HOTEL NETWORKS IN AZERBAIJAN


## ABSTRACT

Hotel chains are very significant for the development of tourism industry. The article aims to describe the development of hotel chains in Azerbaijan from historical standpoint. The positive relationship between presence of hotel chains and development of tourism industry is been analyzed. Furthermore, the article informs the reader about current hotel chains and names a few hotels with fresh perspective that might have potential success in Azerbaijan


**Keywords:** hotel, hotel chains, tourism, tourism industry

Son illər Azərbaycanda turizmin sürətlə inkişaf etməsi bu sahəyə xarici sərmayədarların marağını da artırıb. Bu baxımdan ölkəmizdə beynəlxalq mehmanxana şəbəkəsinə daxil olan hotellərin sayının artmasını xüsusi qeyd etmək gərəkdir. Dünyanın bir sıra aparıcı otel şəbəkələrinin bir qoluda Azərbaycandadır. Bu şəbəkələrin sayının daha da artırılması planlaşdırılır.

Əvvəlcə beynəlxalq mehmanxana şəbəkələrinin tarixinə göz ataq. Ölkəmizdə beynəlxalq mehmanxana şəbəkə sistemi XX əsrin 90-cı illərindən fəaliyyətə başlayıb. Bu dövrdə Naxçıvanda «Hyatt» şirkətinə məxsus olan «Hyatt Regency-Naxçıvan», Bakıda isə Avropa otel fəaliyyətə başlayıb. 1999-cu ildə isə «Hyatt» şirkətinə məxsus olan «Hyatt Park» hoteli inşa olunub.

Mehmanxana şəbəkələri (iki və daha çox) mehmanxana qruplarından ibarət olur, kollektiv biznesi həyata keçirir və vahid rəhbərliyin nəzarəti altında fəaliyyət göstərir. Mehmanxana şəbəkələrinin rəhbərliyi mehmanxanaların hər hansı bir fəaliyyətindən gəlir götürərək üstünlük əldə edir, eyni zamanda iş prosesində nöqsanların məsuliyyətini daşıyır. Şəbəkə otellər öz xidmət üslublarını, texnologiyasını ölkəmizə gətirir, eyni zamanda yerli kadrlarada bu texnologiyanı öyrədir.

Beynəlxalq mehmanxana şəbəkələrinin böyük bir qismi ABŞ-a məxsusdur. Bu, lüks dərəcəli mehmanxana şəbəkələri olan «Hyatt», «Hilton», «West İnn» və orta dərəcəli mehmanxana şəbəkələri olan «Holiday İnn», «Mariott», «Şeraton», «Ramada» və başqalarından ibarətdir.

İnkişaf etməkdə olan ölkələrdə ABŞ mehmanxana idarəetmə təcrübəsinə böyük ehtiyac var.

Mehmanxana şəbəkəsinə daxil olan hər bir müəssisə şəbəkə nişanı altında fəaliyyət göstərir. Öz firma nişanlarına ciddi əməl edən mehmanxanaların üstünlüyü ondan ibarətdir ki, eyni nişanlı müəssisələrin müştərilərinin bu mehmanxanalarda (hansı ölkədə yerləşməsindən asılı olmayaraq) təqdim olunan xidmətlər haqqında kifayət qədər təsəvvürləri olur. Bu sistem şəbəkələrə imkan

verir ki, yeni mehmanxanalar fəaliyyətə başlamazdan əvvəl onların reklamını həyata keçirsin və əvvəlcədən sifariş qəbul etsin.

Şəbəkə otellərin artması ilə ölkəyə turist axınının artması bir-biri ilə qarşılıqlı əlaqədədir. Çünki beynəlxalq şirkətlər öz otellərini turizmin inkişaf etdiyi ölkələrdə və ya şəhərlərdə açmaq istəyirlər. Buna görədə turist axınının artması yeni şəbəkələrin ölkəyə cəlb olunmasına şərait yaradır. Eyni zamanda beynəlxalq mehmanxana şəbəkələri özləri ilə birlikdə turistdə gətirirlər. Məsələn səfər etdiyi ölkələrdə Hilton otellər şəbəkəsində gecələyən bir turist, Bakıya səfər planlaşdırdığı zaman, ilk olaraq burada Hilton mehmanxanasının olub-olmadığını araşdıracaq. Məhz bu səbəbdən hər yeni açılan beynəlxalq mehmanxana şəbəkəsi daha çox turistin cəlb olunmasına şərait yaradacaq.

Hal-hazırda mehmanxana şəbəkələrinin böyük qismi Bakıda cəmlənib. Arzu olunandır ki, bütün regionlarımızda beynəlxalq şəbəkə sisteminə daxil olan hotellər fəaliyyət göstərsin. Bu, həmin regionlarda turizmin inkişafına kömək edər, həmçinin yüksək səviyyəli otel personalının hazırlanması üçün şərait yaratmış olardı. Bu hotellərdə çalışan personal üçün beynəlxalq xidmət standartlarına uyğun təlim-tədris keçirilir. Bəzi işçilər xarici ölkələrdə şəbəkəyə məxsus hotellərdə təcrübə keçirlər və bu, onların bir mütəxəssis kimi yetisməsində mühüm rol oynayır. Otelçilik üzrə müxtəlif ixtisaslara yiyələnən milli kadrlarımız dünyanın müxtəlif ölkələrində otel biznesi ilə məşğul olmaq imkanı əldə edir, bu sahədə bilik və bacarıqlarını təkmilləşdirirlər.

Təbii ki, səhmdarları ölkəyə cəlb etmənin ən yaxşı yoluda reklamın güclü olmasıdır. Bunun üçündə xaricdəki səfirliklər vasitəsi ilə müxtəlif tədbirlər təşkil etmək, ölkədə turizmin inkişafı barədə danışmaq lazımdır.

Azərbaycanda fəaliyyət perspektivli otellərdən danışmadan öncə, ölkəmizdə fəaliyyət göstərən bəzi şəbəkə otellərin adlarını qeyd etmək istəyərdim.

Bunların başında “Hilton” otel gəlir. 2011-ci ilin oktyabr ayının 3-də açılışı olan beşulduzlu “Hilton Baku” otel kompleksi də dünyanın məşhur brendinin paytaxt şəhərimizdə təmsilçisidir. “Hilton” otellər şəbəkəsi və onun sahibi “Hilton Worldwide” şirkəti 92 ildir biznes və istirahət məqsədilə səyahətə çıxan şəxslərə ən gözəl mehmanxanalar, xidmətlər, istirahət zonaları təklif edir.

“Sheraton Baku Airport Hotel”. “Starwood Hotels and Resorts Worldwide” şirkətinin “Silk Way Airlines” MMC ilə əməkdaşlığı nəticəsində isə 2011-ci ilin oktyabrında paytaxtımızda beşulduzlu “Sheraton Baku Airport Hotel” oteli istifadəyə verilib. Heydər Əliyev Beynəlxalq Aeroportunun yaxınlığında yerləşən “Sheraton Baku Airport Hotel” 14-ü lüks olmaqla, 207 nömrədən ibarətdir. Oteldə restoran, istirahət yerləri və konfrans zalları var.

2011-ci ilin sonunda Bakının Xəzər rayonunun Bilgəh qəsəbəsində, Xəzər dənizi sahilində istifadəyə verilən “Jumeirah Bilgah Beach Hotel” kompleksi dünyanın 12 ölkəsində beşulduzlu otellərin sahibi olan “Jumeirah Group”un MDB məkanında ilk otelidir. 20 mərtəbədən ibarət oteldə ən müasir standartlara

cavab verən texnologiya quraşdırılıb. Kompleksin zəngin kitabxanasında Fransadan gətirilmiş qiymətli kitablar toplanıb. Oteldə qeydiyyat mərkəzi və qonaqların istirahəti üçün rahatlığı ilə seçilən gözləmə otağı xüsusi zövqlə işlənib. Burada, həmçinin müxtəlif səviyyəli tədbirlərin keçirilməsi üçün müasir informasiya-kommunikasiya texnologiyaları ilə təchiz edilmiş 450 nəfərlik konfrans zalı var. İşıqlandırma sisteminin mükəmməlliyi ilə seçilən otelin birinci mərtəbəsində dənizin cazibədar mənzərəsi görünən və müxtəlif tədbirlərin keçirilməsi üçün nəzərdə tutulan 400 nəfərlik zal yaradılıb. Bu mərtəbədəki 44 nəfərlik "Piano lunch" da qonaqların ixtiyarına verilir. Kompleksin 14 mərtəbəsində 175-i deluks, 37-si isə suit olmaqla 212 nömrə yaradılıb. Qonaqların istirahəti üçün hər cür şəraitin olduğu bütün nömrələrdən Xəzər dənizinin füsunkar panoramını seyr etmək mümkündür. Otaqlar simsiz internet, fərdi kondisioner sistemi, fərdi seyflər və birbaşa çıxışı olan telefonla təmin edilib.

Köhnə "Abşeron" mehmanxanasının yerində tikilən və 2012-ci ilin aprelində istifadəyə verilən beşulduzlu "JW Marriott Absheron" oteli isə dünya şöhrətli "Marriott International" şirkətinin ölkəmizdəki ilk otelidir. Oteldə yüksək kateqoriyalı "Executive studio", "Executive Deluxe", "Executive Premier" və "President luxe" də daxil olmaqla ümumilikdə 243 geniş otaq var. Burada Şərq mətbəxinin təamlarının təklif edildiyi "Fireworks Oriental Kitchen", İtaliya mətbəxinin nümunələri olan "OroNero BarRistorante" restoranları, "Razzmatazz CocktailLounge" barı və "Zest Lifestyle" kafesi fəaliyyət göstərir. Otelin binasının üst üç mərtəbəsini əhatə edən "Abşeron Spa" mərkəzində qonaqlar Bakının və Xəzər dənizinin füsunkar mənzərəsini seyr etmək imkanına malikdirlər. Mərkəzdə altı prosedur otağı, daxili hovuz, buxar otağı və sauna vardır. İşgüzar görüşlər və konfransların keçirilməsi üçün isə oteldə təbii Günəş işığı ilə işıqlandırılan 13 iclas zalı var. Otelin mirvarisi hesab olunan 1208 kvadratmetrlik sütunsuz "Şərq" zalında böyük tədbirlərin, sərgilərin və digər mərasimlərin keçirilməsi üçün hər cür şərait yaradılıb. "JW Marriott Absheron" otelinin Bakıda fəaliyyət göstərməsi də Azərbaycanın böyük turizm potensialına malik olmasını və tezliklə respublikamızın dünyanın elit turizm mərkəzlərindən birinə çevriləcəyini bir daha təsdiqləyir.

2012-ci ilin sentyabrında bakıda istifadəyə verilən "Four Seasons Hotel Baku" dünyanın inkişaf etmiş ölkələri sırasında yerini möhkəmləndirən Azərbaycanda otel biznesinin genişləndirilməsinə və keyfiyyətcə yeni mərhələyə qədəm qoymasına böyük imkanlar açır. "Four Seasons" otellərinə xas mahir ustalıqla inşa edilən yeni memarlıq əsəri "Beaux-Arts" dəbinin parlaq nümunəsi olmaqla tarixiliklə yanaşı, müasir dəbin ahəngini əks etdirir. Əzəmətli tağların altından keçərək içəri daxil olan hər kəsi ayrı-ayrı elementləri incə zövq və zərifliklə işlənən vestibül, sözün əsl mənasında, valeh edir. Qeyd edək ki, "Four Seasons Hotels and Resorts" şirkəti beynəlxalq mehmanxanalar şəbəkəsidir.

"Alov qüllələri" kompleksindəki "Fairmont Baku" otelinin istifadəyə verilməsi də Azərbaycanda gedən inkişaf proseslərinin göstəricisi olmaqla yanaşı, ölkəmizin müasir simasının yaradılması istiqamətində atılan mühüm addımlardandır. "Alov qüllələri"ni yeni yüzillikdə Bakıda həyata keçirilən şəhərsalmanın mühüm tərkib hissəsi və hətta yeni elementlərindən biri hesab edilir. Müasir Bakının simvollarından birinə çevrilən bu qüllələr qlobal urbanizasiya tələblərinə tam cavab verməklə özündə bir neçə kompleksi və xidmət sektorunu birləşdirir. Oteldəki nömrələrin hamısından şəhərə və Xəzər dənizinə gözəl mənzərə açılır. Otel qülləsində ümumi sahəsi 2,3 min kvadratmetrdən çox olan və özündə idman zalı, hovuz və digər istirahət yerlərini birləşdirən xidmət sahələri yaradılıb. Bundan əlavə, burada ümumi sahəsi 5 min kvadratmetrdən çox olan müxtəlif konfrans zalları da fəaliyyət göstərir. Beş konfrans zalında minimum 430, maksimum 1000 nəfərlik tədbirlərin keçirilməsi üçün hər cür şərait var. Burada müxtəlif ziyafət zalları, restoran və kafelər qonaqlara yüksək səviyyəli xidmət göstərir. Yerləşdiyi ərazi və mənzərəsi baxımından nadirliyi ilə fərqlənən "Fairmont Baku" oteli təklif etdiyi xidmətlər baxımından bir çox brendləri üstələyir və ölkəmizin müasir turizm imkanlarını daha da artırır.

Ümumiyyətlə, yuxarıda adları sadalanan beynəlxalq səviyyəli şirkətlərin Azərbaycan bazarına maraq göstərməsi ölkəmizdə istər yerli, istərsə də xarici iqtisadi qurumlar üçün yaradılan əlverişli investisiya mühitindən irəli gəlir. Yerli və xarici sahibkarlara dövlətin dəstəyi isə Azərbaycanda iqtisadi layihələr həyata keçirmək, sərmayə yatırmaq istəyənləri bir qədər də həvəsləndirir.

Hal-hazırda ölkəmizdə bəzi otellərin açılması layihəsi vardır. Bunlardan biri "Hilton Garden İnn" otelidi. "Hilton Garden Inn", "Hilton"un 14 markasından biridir**.** Azərbaycanın "Pmdprojects" şirkətinin gələcək layihələrindən biri Bakıda "Hilton Garden Inn" otelinin tikintisidir.

Hilton Garden Inn Bakı şəhərinin mərkəzində, Rəşid Behbudov küçəsində yerləşəcək. Otel gözəl Bakı parkları ilə əhatə olunmuşdur. Otelin unikal restoran və kafesi təkcə qonaqlar üçün deyil, şəhər sakinləri üçün də əlçatan olacaq. Otelin möhtəşəm interyeri qonaqlara rahatlıq verəcəkdir".

| | | |
|---|---|---|
| 1 | Wyndham Worldwide | 8,092 |
| 2 | Choice Hotels | 6,429 |
| 3 | Marriott International | 5,974 |
| 4 | InterContinental Hotels Group | 5,070 |
| 5 | Hilton Worldwide | 4,727 |
| 6 | AccorHotels | 4,200 |
| 7 | Best Western Hotels | 4,196 |
| 8 | Jin Jiang International | 3,090 |
| 9 | Home Inns | 3,000 |
| 10 | Motel 6 | 1,330 |
| 11 | Carlson Rezidor Hotel Group | 1,112 |
| 12 | Vantage Hospitality | 1,090 |
| 13 | La Quinta Inns and Suites | 889 |
| 14 | Whitebread plc | 700 |
| 15 | Hyatt Hotels Corporation | 667 |

Otellərin, nömrələrin sayına görə dünyanın ən qabaqcıl 15 otel şəbəkəsini göstərə bilərik ki, ölkəmizdə hələki bu şəbəkələrdən bəzilərinin oteli yoxdur.

Bunların bəzilərinin Azərbaycanda fəaliyyətə başlaması üçün perspektiv vardır. Bu otellərdən biri Choice otellər zənciridi. Mərkəzi ABŞ-da yerləşən, 80 illik tarixə sahib otelin dünya üzərində 6500-dən çox oteli fəaliyyət göstərir. 600 mindən çox otaq sayı olan otel dünyanın bir çox ölkəsində fəaliyyətdədir. Bu otelin ölkəmizdə açılması həm turizmin inkişafına, həm də yerli kadrların işlə təmin olunmasına şərait yaradacaq.

**Ədəbiyyat:**


1. Soltanova H.B., Ağakərimov M.M., Babazade S.i. “Mehmanxana təsərrüfatı”. Bakı "Parni iz Baku" 2005.
2. M.M. Ağakərimov. “Otel”. Dərs vəsaiti. “R.N. Novruz-94” nəşriyyatı, Bakı-2008.
3. Kotas, R. (1989). Management Accounting for Hotels and Restaurants. Surrey Universitity Press, Glasgow.
4. www.yenimedia.info
5. www.worldatlas.com
6. www.azxeber.com

UOT 33

# MÜASİR DÖVRDƏ SOSİAL ŞƏBƏKƏLƏRİN ŞƏXSİYYƏTİN CƏMİYYƏTDƏ YADLAŞMA PROBLEMİNƏ TƏSİRİ

**Nigar Mikayıl qızı VAHABZADƏ**

*Qərbi Kaspi Universiteti*
*İctimai və Siyasi elmlər fakültəsi*
*nigar.vahab@gmail.com*

## Xülasə

Yadlaşma anlayışı həyatımızın hər sahəsində müəyyən bir təsirə malikdir. Ali təhsili olmayan, küçədəki insanların belə bir çox sosial problemdən bəhs edərkən adını tam olaraq bilməsələr belə, əslində yadlaşmadan bəhs etdiklərini müşahidə etmək olar. Xüsusilə kommunikasiya texnologiyalarının inkişafı və iqtisadi rifah səviyyəsinin yüksəldilməsi ilə ictimai həyatla əlaqəli nəsillər arası düşüncə tərzləri olduqca fərqlidir. Bu vəziyyət yadlaşma anlayışı ilə bağlı dərin təhlil etməyi olduqca önəmli bir hala gətirir. Bu məqalədə günümüzdə daha da geniş yayılan sosial şəbəkələrin şəxsiyyətin cəmiyyət arasında yadlaşması probleminə təsiri araşdırılır. Sosial şəbəkələrin zaman və məkan anlayışını sıxışdırıb çıxarması, insanların daha sosiallaşmaq istədiyi halda özünə qapanması məsələləri ön plandadır.

**Açar sözlər:** sosial şəbəkələr, internet, texnologiya, virtual mühit şəxsiyyət, cəmiyyət, yadlaşma, sosiallaşma, zaman

# ВЛИЯНИЕ СОЦИАЛЬНЫХ СЕТЕЙ НА ОТЧУЖДЕНИЕ ЛИЧНОСТИ В ОБЩЕСТВЕ В СОВРЕМЕННОМ ВРЕМЕНИ

## РЕЗЮМЕ

Понятие отчуждение оказывает определенное влияние на каждый аспект нашей жизни. Даже если люди не имеющие бысшего образования и находящиеся на улице, когда говорят о социальних проблемах можно наблюдат что они на самом деле упоминают отчуждение. Поколения коммукации, особенно в связи с развитием коммуникационных технилогий и ростом экономического благосостояния, сильно отличаются друг от друга в способах мышления, связанных с поколениями в общественной жизни. Это ситуация способствует глубокому анализу отчуждениа. В данной статье рассматривается влияние социальных сетей на проблему рас-

познавания личности в современном обществе. На преднем плане выступают такие проблемы, как сжатие понятий времени и пространство социалный сетями и случаи когда люди хотят большей социализации, но в итоги уходят в себе.

**Ключевые слова:** социальные сети, интернет, технология, виртуальная среда, личность, общество, отчуждение, социализация, время

## THE IMPACT OF SOCIAL NETWORKS ON THE ALIENATION OF IDENTITY IN SOCIETY IN THE MODERN TIME

### SUMMARY

Alienation has special effect in every part of our life. When uneducated people talk about social problems, we can see that they mean alienation. The thought of the generations about social life is so different, because of development of communication technology and economic prosperity. It makes research alienation so important. In this article, the impact of social networks on the alienation of the person among the society is researched. The issues that social networks eliminate the concept softime and space, people are getting more self-closing, when they want to be sociable are in the foreground.

**Keywords:** social networks, internet, technology, virtual environment, identity, society, alienation, socialization, time

Son illərdə internet milyardlarla insan arasında yayılmış və həyatımızın bütün sahələrinə daxil olmuşdur. Qısa zaman kəsiyi ərzində sosial şəbəkələr ünsiyyət mərkəzinə çevrilmişdir. Son on ildə baş verən dəyişikliklər insanların əlaqələrinə, sosiallaşma formalarına və hətta həyat tərzlərinə təsir göstərmişdir.

Müasir cəmiyyətin ortaya çıxması ilə cəmiyyətdə bəzi sosial dəyişikliklər özünü göstərir. Müasir dövr özü ilə onunla çox sürətli bir dəyişiklik gətirdi. Bu vəziyyət texnologiya baxımından ən çox görülsə də, hər sahədə müşahidə olma imkanına malikdir. Müasir ictimai qurumların inkişafı və onların dünya miqyasında yayılması insanlara təhlükəsiz və xoş bir həyat yaşamağa imkan verən pre-modern sistemlərdən daha çox imkanlar yaratmışdır. Təmin etdiyi müsbət imkanlardan əlavə, müasir dövr bəzi problemlər yaradır. Marks və Dürkheym dedikləri kimi: müasir dövrün təmin etdiyi müsbət imkanlar onun mənfi xüsusiyyətlərindən üstündür [2, səh. 783].

Modernləşmə ilə ortaya çıxan texnoloji yeniliklər ictimai həyatda da dəyişikliklərə səbəb olmuşdur. Bu dəyişikliklər xüsusilə iş həyatımızda, təhsildə və sosial vərdişlərimizdə də fərqlər yaradır. Ənənəvi ünsiyyətdən sosial şəbəkə ünsiyyətinə keçən cəmiyyətlər üçün tənhalaşma və şəxsiyyətin cəmiyyətdə yadlaşması problemləri qaçılmaz bir faktdır. Sosial şəbəkələr üzərindən qurulan

əlaqələrin genişləndiyi vaxta, insanlar üz-üzə əlaqə qurmaq üçün kifayət qədər vaxt tapa bilmirlər. Sürətli kommunikasiya zaman və məkan qavrayışının itməsinə səbəb olmuşdur. Bu ani ünsiyyətlə yanaşı, şəxslərin davranışları da virtual davranışlar və virtual emosiyalar kimi dəyişir. Yəni, jest və mimikaların olmadığı bir ünsiyyət formasından bəhs edirik. Bu kontekstdə, virtual mühitdə olan ünsiyyət şəxsiyyəti yalnızlıq, tənhalıq və yadlaşma mərhələsinə sürükləyir.

İnternet texnologiyasındakı sürətli inkişaf bir çox mövcud xidmətlərin gözdən düşməsinə səbəb oldu. Bu yeni texnologiya sürətlə mənimsənilmiş və geniş yayılmışdır. 2005-ci ildən başlayaraq bu virtual dünya "YouTube" və "Facebook" kimi texnologiyalarla adında söz etdirməyə başlamışdır. Gün keçdikcə Twitter, blog kimi bir çox texnologiya insanların özlərini daha rahat və sərbəst şəkildə ifadə etmələri və fikirlərini ictimaiyyət ilə paylaşmaqlarına, bir çox yeni imkanlar təqdim edən sosial şəbəkələr halına gəlib çıxmışdır. Buna görə də sosial şəbəkə deyildikdə, bunu sadəcə Facebook və Twitter ilə məhdudlaşmaq lazım deyildir. Forumlar, konfranslar və bu sahələrdə paylaşılan sözlər, mikrobloglar bir yerdə fikirlərin və məlumatların insanların bir-birilə bölüşdüyü, informasiya mübadiləsi olan hər sahə artıq sosial şəbəkələrə daxil edilir.

Sosial şəbəkələrin dövrümüzün əvəzedilməz bir hissəsi halına gəldiyi aşkardır. Kafelər kimi sosiallaşma məkanları indi WhatsApp və Facebook kimi sosial şəbəkə kanalları ilə əvəz olunur. Burada əsas olan "hər an hər yerdə paylaşım etmək"dir. Böyük şəhərlərin bərabərində gətirdiyi vaxt problemini nəzərə alsaq, sosial şəbəkələr həyatımızın hər sahəsinə yayılmağa başladı. Vaxta qənaət edərkən, şəxslər özlərinə mənfi təsir göstərirlər. Bundan əlavə, texnoloji qurğuların ortaya çıxması ilə fiziki və zehni hərəkətlər bir-birinə ziddiyyət təşkil etməyə başlamışdır [3]. Artıq ağlımızdan keçən fikirlərimizi bir barmaq hərəkəti ilə digər tərəfə ötürə bilirik. Sosial şəbəkələr insanların bir araya gəlməsində çətinliklərə səbəb olur. Beləliklə, fərd ilə başlayıb cəmiyyət içərisində yayılan "yadlaşma" problemi ortaya çıxır.

Müasir cəmiyyətin ən köklü problemlərindən biri olan "yadlaşma" problemi sosiologiya, psixologiya və sosial psixologiya kimi müxtəlif elmi sahələrdə emprik tədqiqatların mövzusuna çevrilmişdir. Göründüyü kimi, yadlaşma anlayışı bir çox fərqli aspektlərdə işlənir. Bununla belə, üç əsaslı fərqli yanaşmanın araşdırılması məqsədəuyğun hesab edilir. Yadlaşma anlayışı ilk olaraq Jan Jak Russo tərəfindən istifadə edilmişdir. Bu konsepsiyanı fəlsəfə sahəsinə gətirən Hegel və Marks idi. Hegel yadlaşma konsepsiyasını izah edərkən insanın öz "mən"inə yadlaşmasından danışır. Marksa görə yadlaşmanın ən çox yaşandığı mühit isə cəmiyyət arasında yadlaşmadır [3]. Fərd bu cəmiyyət arasında bir maşının hissəsi kimi daima sürətli şəkildə nəsə istehsal edir və istehsal etdikcə öz istehsal etdiyinə və cəmiyyətə qarşı yadlaşmağa başlayır.

Özümüzü yeniləmək məcburiyyətində hiss etməyimiz, özümüzə daha çox qapanmağa səbəb olur, köhnə halımızı silmək, dağıtmaq, düzəltmək bütün bu

proseslər çətindir. Öz keçmişimizi yıxmaq özümüzlə münaqişəyə gətirib çıxarır. Hər insan yeni mühitə, dəyişikliklərə eyni reaksiya verə bilib uyğunlaşa bilmir. Reaksiya əksikliyi cəmiyyətdən, dəyişikliklərdən geri qalmağa gətirib çıxarır. Beləliklə insan bütün hər şeyi inkar etməyə başlayıb, öz qabığına çəkilir.

Tənhalıq indiki zamanda olduqca önəmli və ümumbəşəri problem olaraq qalır. Elə bu səbəbdən də təsadüfi deyil ki, son zamanlarda bu problem insanlar tərəfindən daha çox diqqət cəlb edir. Belə ki, aparılan müxtəlif psixoloji tədqiqatların nəticələri onu göstərir ki, tənhalıq şəraiti insanlar arasında geniş yayılmış və bu vəziyyətin yaranmasının həm şəxsin özünə həm də ətrafdakılarına ciddi təsiri mövcuddur. Yəni cəmiyyət içində cəmiyyət üzvünün yadlaşması, kəkin tənhalıq hissinə düçar olması həm fərdin özü, həm də o cəmiyyət üçün acınacaqlı nəticələrə gətirib çıxarır [4].

Zaman və məkan qavrayışının yox olması ilə birlikdə insanlar coğrafi maneələri aşaraq qlobal ünsiyyət mərhələsinə daxil olurlar. Qlobal ünsiyyət müxtəlif yerlərdə müxtəlif insanlar ilə ünsiyyət qurmaq imkanı verir. Ancaq müasir insanın üz-üzə ünsiyyətdən virtual kommunikasiyaya keçməsi ona müxtəlif problemlər yaradır. Bu problemləri cəmiyyətdə baş verən mənəvi, ruhi dəyişikliklər adlandırmaq olar ki, biz onu zaman-məkan sıxılması olaraq qeyd edə bilərik. İnsanın təbiətində ünsiyyət zəruri olan bir gerçəklikdir. Günümüzdə şəxslər, ünsiyyət təlabatlarını ənənəvi sosiallaşma formalarını tərk edərək sosial şəbəkələrdə ödəməyi üstün tuturlar. Xüsusilə eyni şəhərdə yaşayan iki insanın ünsiyyət təlabatını sosial şəbəkələr üzərindən təmin etmələri olduqca mühüm bir vəziyyətdir [6, səh. 519].

Londonda tibbi – psixoloji assosiasiyanın prezidenti İrvin Stengel "Müasir cəmiyyətin tənhalığı" mövzusunda məruzə edərək qeyd edərdi: "Biz bir-birimizlə çox az-az ünsiyyətdə oluruq. İnsanlarda çox təhlükəli vərdiş əmələ gəlmişdir: onlar bir-birinə həmsöhbət kimi cansız predmetləri – radionu, televizoru, kompyuteri, qəzeti, canlılardan isə heyvanları insanlardan üstün tutur. Məruzənin ortasında professor qəfil auditoriyaya belə bir sualla müraciət edir: "Siz axırıncı dəfə nə zaman öz həyat yoldaşınızla yarım saat söhbət etmisiniz?" Məlum oldu ki, zalda olan 150 nəfərdən heç kim öz həyat yoldaşıyla axırıncı dəfə bu qədər söhbət etməmişdir" [8].

Sosial şəbəkələrin istifadəsinin artması yalnız gənclər arasında deyil, yetkin şəxslər arasında da geniş yayılmışdır. Fərdlərin sosial şəbəkələri sıx bir şəkildə istifadə etməsi insanların üz-üzə ifadə edə bilmədiklərini daha rahat şəkildə ifadə etməyə imkan verir. Bu insanın ictimai həyatdakı şəxsiyyəti ilə, virtual aləmdəki şəxsiyyəti arasındakı fərqi gözlər önünə sərir. Bir şəxsin bu tərzdə ünsiyyətə üstünlük verməsi onu "yadlaşma" mərhələsinə sürükləyir [1, səh. 120].

Həmçinin sosial şəbəkələr insanlar arasında ünsiyyət qurmaq üçün bir vasitə olmaqdan uzaqlaşaraq məqsədə çevrilməyə başlayıbsa, burada təhlükə siqnallarını başlamışdır. Xüsusilə də insan ailə, dost kimi yaxın mühiti ilə vaxt keçirmək yerinə sosial şəbəkələr başında vaxt keçirtməyə yönəlibsə, burada tənhalıqdan və insanın cəmiyyətə yadlaşmasından bəhs etmək olar.

Urbanizasiya və sənayeləşmənin baş verdiyi müasir dünyada fərdiləşdirilmiş cəmiyyətlər yalnızlaşmış tənha fərdlər halına gəlmişdir. Fərdlər yalnızlıq, tənhalıq hissindən qurtulmaq üçün digər şəxslərlə ünsiyyət qurmaq istəyirlər. Yaşadığımız rəqəmsal dünya bu ünsiyyət tələbatını ödəməyi asanlaşdırır.

Müasir həyat hər nə qədər daha çox ünsiyyət qurulduğunu göstərirsə də, cəmiyyətdə baş verən dəyişikliklər və daha çox pul qazanmaq istəyi fərdlərin bir-biriləri ilə olan harmoniya mexanizmini pozur və hətta fərdi öz maraqları ilə hərəkət etməyə məcbur edir. Bu istəklər və dəyişikliklər şəxsin "yadlaşmasına" gətirib çıxarır. Yadlaşma xüsusilə müasir dünyada tez-tez müşahidə olunan bir vəziyyətdir.

Bəs ortaya sual çıxır ki, yaxınları və qonşuları ilə üz-üzə görüşməyən, tənhalığı seçən insanlar niyə sosial şəbəkələrdə aktiv olurlar?

İnsanların sosial şəbəkələrdə daha çox vaxt keçirməyini təmin edən arqumentlər və applikasiyalar çoxaldıqca şəbəkələrin insanlar üzərində təsiri də paralel şəkildə artmağa başlayır. Əgər insan sosial şəbəkələrdə çox vaxt keçirdirsə, şişirdilmiş paylaşımlar edirsə bu insanın həyatında müəyyən şeylərin qaydasında olmadığını demək olar. Ya özü ilə, ya da ətrafı ilə problem yaşayır. Real həyatda yaxınları ilə problem yaşayıb uzaqlaşmağı üstün tutan insan bu aspektdə yaxın ətrafından qaçmaq üçün fərqli bir məkan axtarışında ola bilər. Belə olduqda virtual aləm, sosial şəbəkələr onlar üçün əsl axtardıqları məkandır. Bir şeylərdən qaçmaq və bir şeylərə sığınmaq istəyən biri üçün sosial şəbəkələr ən rahat çata biləcəkləri yerdir. Beləliklə içində olduğu bu problemləri həll etmək əvəzinə sosial şəbəkələr sığınan şəxs cəmiyyətdən uzaqlaşmağa başlayır [5].

Sşroederə görə sosial şəbəkələr insanları indiki həyat tərzlərindəki maddi problemləri unutdurmaq ilə yanaşı, insanın sadəcə özünün təxəyyülü ilə məhdudlaşdırılmış, süni olaraq yaradılmış və insanın özünün görmək istədiyi kimi dünya vəd edərək özünə cəzb edir [6, səh. 524] .

Xüsusilə uşaq və yeniyetmələrin sosial şəbəkələrə daha çox bağlı olması qlobal bir problem olaraq qarşımıza çıxır.

Sosial şəbəkələr insanlara olmaq istədikləri kimi şəxsiyyət obrazına bürünməyə imkan yaradır. Qısacası; saxta şəxsiyyət yaratmaq, ideal eqo və şəxsin öz eqosu arasındakı fərqi azaltmaq məqsədi daşıyır. Bu gün fərdlər tanınmaq üçün sosial şəbəkədəki izləyicilərin sayını artırır. Ancaq şəxsin gerçək dünyadakı şəxsiyyəti ilə və virtual dünyada olan şəxsiyyəti arasındakı fərqlilik ona böyük problemlər gətirir. Malik olduğu şəxsiyyət obrazı ilə saxta yaratdığı

şəxsiyyət obrazı toqquşaraq şəxsiyyətlərarası münaqişələrə səbəb olur [2, səh. 785]. Bir insanın telefonda saatlarla söhbət etməsi və yazışması insanın şəxsiyyətinin yadlaşmasına gətirir.

**Nəticə**.

Sosial şəbəkələr insanların özlərində əksik hiss etdiyi hisslərə xitab edir. İnsan hər nə qədər sosial şəbəkələr vasitəsilə yalnızlığını, tənhalığını dindirdiyini düşünsədə, telefon və kompyuteri söndürdükdə yenidən təkbaşına qalmaq reallığı ilə üzləşəcəklər. Bu reallıq yalnızlıq, tənhalıq hissini daha da dərinləşdirəcək.

**Ədəbiyyat:**

1. Ofluoğlu G.; Büyükyılmaz O. (2008). “Yabancılaşmanın Teorik Gelişimi ve Tarihsel Süreç İçinde Farklı Alanlarda Görünümleri”, Kamu-İş Dergisi, cilt no: 10, sayı 1, 113-144.
2. Seeman, M. (1959, Aralık). "On the meaning of Alienation". American Sociologial Review, 24(6), 783-791.
3. Müasir şəraitdə tənhalığın sosial-psixoloji problemləri: psixologiya elm. namiz. ... dis. avtoreferatı: 19.00.05 / L. M. Cabbarova; elmi rəh. Ə. S. Bayramov; Bakı Dövlət Universiteti. Bakı, 2002. 27 s.;
4. 6. Schroeder, R. (1994). “Cyberculture, cyborg post-modernism and the sociology of virtual reality Technologies”, Future, 26 (5), 519-528.
5. Simkova B. & Cincera J. (2004). Internet Addiction Disorder and Chatting in the Czech Republic. Cyberpsychology & Behavior, 7 (5).
6. Acun, R. (2011). “Her Dem Yeniden Doğmak: Online Sosyal Ağlar ve Kimlik”, http://www.millifolklor.com/tr/sayfalar/89/08_.pdf (27 Ocak 2014).

https://www.academia.edu/10873289/Sosyal_Medya_Ve_Yaln%C4%B1zl%C4%B1k?

http://www.bilisimdergisi.org.tr/bilisim-dergisi-sayilari/s180.pdf

**TARİX**

**UOT 37.01**

# ÜMUMTƏHSİL MƏKTƏBLƏRİNDƏ TARİX ÜZRƏ TƏLİMİN TƏŞKİLİ PROBLEMİNİN İŞLƏNİLMƏ SƏVİYYƏSİ

**Samir Səlim oğlu KƏRİMLİ**

*Tarix üzrə fəlsəfə doktoru, dosent*

*Sumqayıt Dövlət Universiteti*
*fateh99@list.ru*

## XÜLASƏ

Ümumtəhsil müəssisələrində tarixin təlimi problemi müxtəlif tədqiqatçılar tərəfindən araşdırılmaya cəlb olunmuşdur. Keçmiş sovet dövründə bu barədə A.A.Vaqin, N.Q.Dayri, S.A.Yejova və digərlərinin tədqiqatları xüsusi qeyd olunmalıdır. Azərbaycan ümumtəhsil müəssisələrində tarixin təlimi məhz sovet alimlərinin tədqiqatları əsasında həyata keçirilmişdir. Azərbaycanda tarixin təlimi probleminin öyrənilməsi daha çox müstəqillik dövrünə təsadüf edir. Bu mənada azərbaycanlı tədqiqatçılardan M.Əmirov, İ.Cəbrayılov, T.Nəcəfov və digərlərinin adlarını göstərmək olar. Bu tədqiqatçıların əsərlərində Azərbaycanda tarixin tədrisi metodikası elminin inkişafı, tarix dərslərinin təşkilinin nəzəri və metodiki problemləri öyrənilmişdir.

**Açar sözlər:** tarixin tədrisi, tədqiqat, müəllim, şagird, sovet dövrü.

## СТЕПЕНЬ РАЗРАБОТАННОСТИ ПРОБЛЕМЫ ОРГАНИЗАЦИИ ОБУЧЕНИЯ ИСТОРИИ В ОБЩЕОБРАЗОВАТЕЛЬНЫХ ШКОЛАХ

## РЕЗЮМЕ

Проблема преподавания истории в общеобразовательных учреждениях была предметом изучения различных исследователей. Следует отметить работы такихсоветских исследователей, как А.Авагин, Н.Дайри, С.А.Ежова и др. Преподавание предмета истории в общеобразовательных учреждениях Азербайджана основывалось на исследованиях советских ученых. Изучение проблемы преподавания предмета истории в Азербайджане относится к периоду независимости. Этой проблемой занимались такие азербайджанские исследователи, как М.Амиров, И.Джабраилов, Т.Наджафов и др. В своих работах эти исследователи изучали развитие

методики преподавания истории в Азербайджане, как науки, а также теоретические и методологические проблемы организации уроков истории.

**Ключевые слова:** преподавание истории, исследование, преподаватель, ученик, советский период

## THE DEVELOPMENT LEVEL OF ORGANIZING PROBLEM OF HISTORY TRAINING IN GENERAL EDUCATION INSTITUTIONS

## ABSTRACT

Problem of history tarining in general education institutions have been explored by various researchers. Researches by A.A.Vagin, N.G.Dayri, S.A.Yejova and others about this in former Soviet era should be specifically mentioned. The history tarining at Azerbaijan's general educational institutions was carried out on the basis of Soviet scientists' research. Studying the problem of history training in Azerbaijan coincides more with the period of independence. In this sense, the names of Azerbaijani researchers M.Amirov, I.Jabrailov, T.Najafov and others can be mentioned. Development of methodology of history training, theoretical and methodological problems of organizing history lessons in Azerbaijan have been studied in the works of these researchers.

**Keywords:** history training, research, teacher, pupil, Soviet era

Tarix təliminin təşkili, tarix təliminin metodlarının sistemi tarixin təlim metodikası tərəfindən öyrənilir. Bu məsələni nəzərdən keçirmək, daha doğrusu orta ümumtəhsil məktəblərində tədris olunan tarix dərsinin təşkili məsələləri ilə maraqlanmaq məqsədilə keçmiş SSRİ-də tarixin təlimi metodikasının inkişafı və onun tərkibində tarix təliminin işlənmə səviyyəsini nəzərdən keçirmək lazımdır.

Tədqiqatçılardan P.Leybenqrub özünün "Orta məktəbdə tarix dərsinə verilən didaktiv tələblər" əsərində tarixin təliminin metodiki cəhətdən üç əsas xüsusiyyətini: xronoloji ardıcıllığı gözləmək şərti ilə tarix təlimi, öyrədilən fakt və hadisələrin tarixi xəritələrdə lokallaşdırılması və müasir dövr ilə tarixi biliklərin əlaqələndirilməsini vurğulayır [13, s.19]. P.S.Leybenqrub xronologiyanı əsas xüsusiyyət kimi önə çəksə də onun öyrənilməsi yollarına öz əsərində yer ayırmamış, tarixi xəritələrin istifadəsinə isə ötəri toxunmuşdur. Onun əsərinin əsas məzmunu tarixin təliminin təşkilinin didaktiv məsələlərinə, daha doğrusu üsullarına həsr olunmuşdur.

Tarixin təlimi metodikası ilə məşğul olan digər görkəmli metodist, bir sıra tarix dərsliklərinin müəllifi kimi məşhur olan F.P.Korovkindir. Onun metodiki baxımdan fikirləri P.S.Leybenqrubun mövqeyi ilə çox yaxındır. Özünün "V-VI siniflərdə Qədim Dünya və Orta Əsrlər tarixinin təlimi metodikası" adlı əsəri-

nin girişində o, tarixin təlimi metodikasının digər elmlərlə yaxınlığı və onun şagirdlər tərəfindən tarixin mənimsənilməsindəki rolundan yazır. F.P.Korovkinin fikrincə tarixin təlimi metodikasını elm hesab etmək olmaz [14, s.12]. Tarixin təlimi metodikası pedaqoji elmlərin yalnız bir sahəsi kimi çıxış edir.

Tarixin təlimi, tarix dərslərinin təşkili, mahiyyəti, üsulları və s. barədə araşdırma aparmış digər metodist N.V.Andreyevskayadır. Onun “Tarixin metodikasının oçerkləri” əsərində, V.N.Bernadski ilə birlikdə yazdıqları “Yeddiillik məktəbdə tarixin təlimi metodikası əsərində də tarix dərslərinin səmərəli təşkilinin müxtəlif yolları araşdırılmışdır. V.N.Bernadski yazırdı ki, tarixin təlimi metodikası özünəməxsus xüsusiyyətləri olan elmdir. Onun özünəməxsusluğu tarix elminin predmeti, xüsusiyyətləri, elmi metodları ilə müəyyənləşir [6, s.6].

N.V.Andreyevskaya özünün “Tarixin metodikasının oçerkləri” əsərində tarix dərsi, müəllimin tarix dərsinə hazırlaşması məsələlərinə toxunmuş, mütaliəni tarix müəllimi üçün vacib hesab etmişdir. N.V.Andreyevskaya tarix müəlliminə metodiki ədəbiyyatı oxumağı tövsiyyə edir və eyni zamanda qeyd edir ki, metodiki ədəbiyyat hər hansı bir müəllimin təcrübəsinin əksidir, hansı ki, digər müəllimin təcrübəsində mexaniki olaraq təkrarlanmamalıdır [5, s.11].

N.Q.Dayri tarix təliminin təşkili barədə özünün “Yuxarı siniflərdə tarix təlimi” əsərində yazıb. Onun tədqiqat obyekti kimi bir sual əsas yer tuturdu. İdraki prosesi necə mükəmməlləşdirmək olar, bu suala cavab axtaran müəllif tarix dərslərinin nəzəri əsaslarına da toxunmuşdur. Müəllif əsərin I hissəsində məhz bu məsələni tədqiq etmişdir. O, göstərirdi ki, tarixin təlimi metodikasının özünəməxsus qanunauyğunluqları vardır. Bunlarsız o bir elm adlandırıla bilməz. Pedaqogika elminin bir sahəsi olaraq tarixin təlimi metodikası onun nəzəri əsaslarını zənginləşdirir. N.Q.Dayri daha sonra tarix dərslərində şagirdlərin müstəqil işini asanlaşdırmışdır. Onun fikrincə tarixin tədrisi metodikası təlim və tərbiyə prosesinin hər bir elementini ayrı-ayrılıqda araşdırmalıdır. N.Q.Dayrinin tədqiqatında əsas diqqət, tarixi biliklərin mənimsənilməsində, qavrayış prosesində, diqqətin təşkilində, materialın yadda saxlanılmasında, əsasən isə tarix təliminin təşkilində şagirdlərin müstəqil işinə yönəldilmişdir [10, s.3-8].

N.Q.Dayri özünün “Tarix dərsini necə hazırlamalı” adlı digər tədqiqat əsərində də tarix dərsinin səmərəliliyini artırmaq üçün yollar araşdırır. Bu əsərdə tarix dərsinə verilən vacib tələblər, dərsin məzmunu, müəllimin işinin təşkilinə verilən tələblər öz əksini tapıb. Bu əsərdə də N.Q.Dayri tarix dərslərində şagirdlərin müstəqil işinin təşkilinə diqqət yetirmişdir [11, s.22]. XX əsrin 50-ci illərində təlimin səmərəli yollarının axtarışı məsələləri diqqət mərkəzində idi. Burada bir neçə cərəyanlar meydana gəlmişdi. Lakin, o, təlim prosesini yaxşılaşdırmağın yolunu şagirdlərin müstəqil işində görürdü. Tədqiqat sualı müəyyənləşdirilməli və müvafiq tədqiqat getməli idi. Beləliklə, biz deyə bilərik ki, bəlkə də N.Q.Dayri müasir dövrdə tətbiq edilən interaktiv metodları ilk dəfə işləyib.

A.A.Vagin özünün "Orta məktəbdə tarixin təlimi metodikası" əsərində tarix dərsi, orta məktəbdə tarixin təliminin nəzəri və praktiki əsaslarını işləmişdir [7]. A.A.Vagin əsərində məktəbdə tarix təliminin əsas forması kimi tarix dərsini göstərir. Dərsin məzmununu tarixin təlimi təşkil edir. Təlim müvafiq proqram üzrə aparılır və tarixi material üzrə tərbiyə məqsədləri də həyata keçirilir.

Daha sonra A.A.Vagin qeyd edirdi ki, dərsə hazırlaşarkən müəllim bilavasitə verilmiş paraqrafın məzmunu ilə kifayətlənə bilməz. Mövzunun şagirdlərə yetərincə çatdırılması və onun ideya-tərbiyəvi məqsədlərinin yerinə yetirilməsi üçün müəllim daha geniş məlumata malik olmalıdır. Düzgün təşkil olunmuş təlim tələb edir ki, dərsin materialı getdikcə çətinləşsin və həmçinin müvafiq olaraq metodlar da daha rəngarəng olsun. Hər bir dərsin mahiyyətini və mövzusunu iki əsas tərəf - müəllim, onun öyrədici işi və təhsilalanların öyrənmə fəaliyyəti təşkil edir. Nəticədə isə şagirdlər bilik, bacarıq, vərdişlərə yiyələnirlər [7, s.365-375].

A.A.Vagin öz əsərində ənənəvi dərsin ən çox yayılmış formalarından (tiplərindən) birinin mərhələlərini göstərmişdir: 1. Təlimin təşkili; 2. Ev tapşırığının yoxlanması; 3. Yeni materialın öyrənilməsinə keçid; 4. Yeni materialın çatdırılması; 5. Onun mənimsədilməsi; 6. Möhkəmləndirilməsi; 7. Yeni bilik, bacarıq, vərdişlərin tətbiqi; 8. Ev tapşırığı [7, s. 377].

A.A.Vagin göstərirdi ki, dərsin bütün mərhələlərini əhatə edən dərs tipi heç də əsas dərs tipi hesab edilə bilməz. O, deyirdi ki, dərsin tipi mövzunun məzmununa əsasən ortaya çıxır və səkkiz dərs tipi ayırmışdı [7, s.386]. Ümumiyyətlə isə A.A.Vagin göstərilən əsərində tarixin təlimi metodikasının bir sıra məsələlərini qeyd etmiş, bir çox təlim metodlarının analizini vermişdir. Bundan başqa tarixi materialın əsasını təşkil edən təsəvvürlərin yaradılması və anlayışların formalaşdırılması da bu əsərdə əsas yerlərdən birini tutur. Tarix dərsinin nəzəri əsasları da bu əsərdə ardıcıl surətdə işıqlandırılıb.

A.A.Vagin özünün digər "Məktəbdə tarixin təlimi metodikası" əsərində; tarixi inkişafın qanunauyğunluqlarını, xronoloji ardıcıllıq problemini, tarixdə xalq kütlələrinin və tarixi şəxsiyyətlərin rolunun açılması metodikasını, məktəb tarix kursunda mədəniyyət məsələlərini, hərbi keçmişin və hərbi-vətənpərvərlik tərbiyəsinin tarix dərslərində formalaşdırılması yollarını araşdırmışdır [8]. Ümumiyyətlə isə A.A.Vagin tarix dərsi, onun mahiyyəti, məzmunu, tərkibi, təşkili yolları, tipləri, üsul və vasitələri, ümumiyyətlə isə nəzəri əsasları ilə bağlı olan hər bir məsələyə toxunmuşdur.

S.A.Yejova "Orta məktəbdə tarixin tədrisi metodikası" əsərində tarixin təlimi metodikasının pedaqoji elmlər sistemində yerini müəyyənləşdirir. Qeyd edir ki, "metodika" sözü qədim yunan sözü olmaqla tədqiqat yolu deməkdir. Tarixin təlimi metodikasının predmentini tarixin təlimi, onun qanunauyğunluqlarının müəyyənləşdirilməsi, başqa elmlərlə əlaqəsinin aşkarlanması təşkil edir. S.A.Yejova tarix dərsi barədə yazdıqlarını yekunlaşdırarkən qeyd edir ki, tarix

dərsinin məzmunu elmi məntiqi cəhətdən aydın və dəqiq, materialın qoyuluşu emosional cəhətdən qaynar, obrazlı, ümumiləşdirmələr və nəticələr isə inandırıcı olmalıdır. Dərsin gedişində şagirdlərin fəal idraki fəaliyyəti təmin olunmalıdır. Ən yaxşı tarix dərsi kimi isə S.A.Yejova təhsil, tərbiyə və inkişafetdirici məqsədlərin birlikdə həyata keçirildiyi dərsi göstərir [12, s.235].

Y.Y.Vyazemskiy və O.Y.Strelova özlərinin "Tarix təliminin nəzəriyyəsi və metodikası" adlı əsərlərində tarix təliminin formaları, tarix dərsi, onun tipləri, tarix dərslərinin struktur komponentləri, tarix dərslərinin müxtəlifliyi məsələlərinə toxunmuşdurlar. Əsərdə qeyd olunur ki, sovet dövründə tarixin təlimi metodikası ilə məşğul olan heç bir samballı tədqiqat əsəri tarix dərslərinin tipləri məsələsindən yan keçməmişdir. Müəlliflər tarix dərslərinin tipləri barədə müxtəlif metodistlərin fikirlərini verdikdən sonra özlərinin də fikirlərini bildirmişlər. Onlar tarix dərslərinə alternativ olaraq məşğələləri qeyd etmişlər ki, bunlar - mühazirə, laborotoriya məşğələsi, seminarlar, praktiki məşğələlər, disputlar, ekskursiyalardır [9, s.281-288]. Və müəlliflər bu məşğələləri tarix dərsinə bərabər tuturlar.

Azərbaycanda tarixin tədrisi metodikası sahəsində araşdırmaların sayı və seçimi o qədər də çox deyildir. Tarix təlimində interaktiv təlim metodlarından istifadə yollarının araşdırılması müasir dövr tarixin təlim metodikası ilə məşğul olan tarixçi-metodistlərin qarşısında həlli vacib olan məsələlər qoyur. Bu baxımdan biz Rauf Məlikovu misal göstərə bilərik. Rauf Məlikovun tədqiqatları tarix təliminin müasir metodlarının tətbiqində müəllimlərə kömək etmək məqsədi daşıyır.

Eyni sözləri həmçinin tarixin müasir təlim metodlarını araşdıran Tofiq Nəcəfli barədə də demək mümkünür [4]. Hər iki tədqiqatçının əsərləri tarix müəllimlərinin elmi-nəzəri və metodik səviyyəsinin yüksəldilməsinə xidmət edir.

Azərbaycan tarixinin tədrisi metodikası ilə məşğul olan digər bir tədqiqatçı Ramiz Hüseynovdur. R. Hüseynov orta məktəbdə tarix təlimini siniflər üzrə üç yerə bölür, müvafiq olaraq əldə etməli olduqları bilik və bacarıqları göstərir [3].

Azərbaycanda tarixin tədrisinin metodikası sahəsində aparılmış tədqiqatlara İntiqam Cəbrayılovun "Azərbaycan tarixinin tədrisi metodikası" əsərini misal göstərmək olar [1]. Əsərin I fəsili "Azərbaycan tarixinin tədrisi metodikası elm və elmi-pedaqoji fənn kimi" başlıqla altında qeyd edilir. Müəllifə görə Azərbaycan tarixinin tədrisi metodikası pedaqoji elmlər sırasına daxildir. O, eyni zamanda pedaqoji təmayüllü ali məktəblərdə elmi-pedaqoji fənn kimi tədris olunur. Azərbaycan tarixinin metodikasının predmetini tarixin tədrisi prosesi təşkil edir. Orta məktəbdə Azərbaycan tarixinin tədrisi metodikası mürəkkəb, çoxşaxəli, ziddiyyətli pedaqoji hadisə və təzahürləri əhatə edir. Azərbaycan

tarixinin tədrisi metodikası da bir elm kimi aşağıdakı suallara cavab axtarır: 1. Nə məqsədlə öyrətməli? 2. Nəyi öyrətməli? 3. Necə öyrətməli?

İntiqam Cəbrayılov Azərbaycan tarixi dərslərini aşağıdakı tiplərə ayırmışdır.

1. Giriş dərsi; 2. Kombinə edilmiş və ya qarışıq dərs; 3. Yeni materialın öyrənilməsi dərsi; 4. Təkrar-ümumiləşdirici dərs; 5. Bilik və bacarıqların yoxlanılması və uçotu dərsi [6, s.165].

Biz Azərbaycanda tarixin tədrisi metodikası elminin inkişafından, tarix dərslərinin təşkilinin nəzəri və metodiki problemlərindən danışarkən bu problemin işlənmə səviyyəsini araşdırarkən Mübariz Əmirovun tədqiqatlarını xüsusilə qeyd etməliyik. Mübariz Əmirov özünün "Ümumtəhsil məktəblərində tarixin fəal interaktiv təlimi metodikası" əsərində Respublikamızda XX əsrin ortalarında tarixin təlimi metodikasının praktik istiqamətlərində səmərəli fəaliyyət göstərmiş – Rafiq Xəlilovun, Türyan Əzizovun, Ramiz Hüseynovun, Sabir Ağayevin, Elmira Qasımovanın, Lalə Əsədovanın, Dəyanət Musayevin, Nəzakət Mehdiyevanın adını çəkir.

M.Əmirov "Ümumtəhsil məktəblərində tarixin fəal İnteraktiv təlimi metodikası" əsərində tarix dərsləri barədə aşağıdakıları bildirir: "Peşəkar tarix müəllimləri yaxşı bilirlər ki, onlar neçə il dərs deyirsə-desinlər, bütün bu müddət ərzində onların özləri də öyrənməkdə davam edirlər" [2, s.3]. Bu baxımdan qədim latın məsəlində deyilir: "Nə qədər ki, öyrədirik, özümüzdə öyrənirik". Müəllim təkcə tarix elminin inkişafının izləmir, həm də öz fənnini tədris etməyi öyrənir. Qabaqcıl müəllimlər həm başqalarının təcrübələrini mənimsəyirlər, həm də öz fəaliyyətlərindəki rasional təcrübədən istifadə edirlər. Təcrübəli tarix müəllimlərində özünü doğrultmuş üsullar toplanır. Bunların sayı artdıqca müəllimlərin də pedaqoji ustalığı və peşəkarlıq məharəti yüksəlir [2, s.3]. M.Əmirovun tədqiqat əsərində tarixin təlimi vəzifələri ilə yanaşı, tərbiyəvi vəzifələri və həyata keçirilməsi ətraflı işıqlandırılıb.

Tarixin təliminin həyata keçirilməsinə dair Sovet və müasir dövrdə həyata keçirilən tədqiqatlar təsdiq edir ki, həm ənənəvi, həm də müasir təhsil sisteminin özünəməxsusulуqları olmuşdur. Mövzunun Azərbaycanda araşdırılma səviyyəsi əvvəlki illərdə kifayət qədər olmasa da, son illər sahəyə marağın artması təqdirəlayiq haldır.

**Ədəbiyyat:**

1. Cəbrayılov İ. Azərbaycan tarixinin tədrisi metodikası. Bakı: Mütərcim, 2006, 234 s.
2. Əmirov M. Ümumtəhsil məktəblərində tarixin fəal/interaktiv təlimi metodikası. Bakı: Yeni nəşr, 2011, 707 s.
3. Hüseynov R. Azərbaycan tarixi tədrisinin bəzi məsələlərinə dair. Azərbaycan məktəbi jurnalı, 2010, №1.
4. Məlikov R., Nəcəfli T. Tarixin interaktiv təlimi. Bakı: Çaşıoğlu, 2002, 116 s.
5. Андреевская Н.В. Очерки методики истории V-VII классы. Ленинград: Просвещение, 1958, 290 с.
6. Андреевская Н. В., Бернадский В. Н. Методика преподавания истории в семилетней школе. Москва: Учпедгиз, 1947, 216 с.
7. Вагин А.А. Методика преподавания истории в средней школе. Москва: Изд-во Просвещение, 1968, 430 с.
8. Вагин А.А. Методика обучения истории. Москва: Изд-во Просвещение, 1972. 352 с.
9. Вяземский Е. Е. Стрелова О.Ю. Теория и методика преподавания истории Москва: Владос, 2003, 384 с.
10. Дайри Н. Г. Обучение истории в старших классах средней школы. Москва: Изд-во Просвещение, 1966, 438 с.
11. Дайри Н. Г. Как подготовить урок истории. Москва: Изд-во Просвещение, 1969, 128 с.
12. Ежова С.А. и др. Методика преподавания истории в средней школе. Москва: Просвещение, 1986, 272 с.
13. Лейбенгруб П.С. Дидактические требования к уроку истории. Москва: 1960, Изд-во АПН РСФСР, 1960. 279 с.
14. Методика обучения истории древного мира и средних веков в V-VI класса. Под ред. Ф. П. Коровкина и Н. И. Запорожец. Москва: Просвещение, 1970, 400 с.

## SİYASƏT ELMLƏRİ

**UOT 327**

# AZƏRBAYCAN-YUNANISTAN PARLAMENTLƏRARASI MÜNASİBƏTLƏRİNDƏ ERMƏNİSTAN-AZƏRBAYCAN DAĞLIQ QARABAĞ MÜNAQİŞƏSİ

**İlyas Vaqif oğlu HÜSEYNOV**

*Qərbi Kaspi Universiteti,*
*Politologiya kafedrası, müəllim.*
*Bakı Slavyan Universitetinin*
*Beynəlxalq münasibətlər kafedrasının doktorantı*
*ilyasdiplomat@gmail.com*

## XÜLASƏ

Bu məqalədə Azərbaycan və Yunanıstan arasında parlamentlərarası münasibətlərin inkişaf etdirilməsi ilə əlaqədar olaraq keçirilən görüşlər zamanı əsas müzakirə mövzularından biri olan Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı vəziyyətdən bəhs olunur. Azərbaycan Respublikasının Milli Məclisində Azərbaycan-Yunanıstan parlamentlərarası əlaqələr üzrə işçi qrupu, Yunanıstanın qanunverici orqanında isə Yunanıstan-Azərbaycan parlamentlərarası əlaqələr üzrə dostluq qrupu fəaliyyət göstərir. Parlamentlərarası qrupların müntəzəm iclasları çərçivəsində digər məsələlər arasında əsas müzakirə sahələrindən biri də Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsidir. Tədqiqatın əsas məqsədi Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı parlamentlərarası diplomatik görüşlərində səsləndirilən fikirlərin ümumiləşdirilməsi, xronoloji çərçivəyə salınması və Azərbaycan-Yunanıstan parlamentlərarası münasibətlərinə xələl gətirən bəzi amillərin müəyyənləşdirilməsidir. Yunan parlamentarilərinin yekdil fikri ondan ibarətdir ki, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi beynəlxalq hüquq normalarına uyğun həll edilməlidir. Yunanıstan Avropada təhlükəsizlik və əməkdaşlıq üzrə Helsinki Müşavirəsinin 1 avqust 1975-ci tarixli Yekun aktında sadalanmış prinsiplərə sadiqlik nümayiş etdirir. Bundan əlavə, Yunanıstanın xarici siyasətində Beynəlxalq hüququn əsas prinsiplərindən hesab olunan dövlətlərin ərazi bütövlüyü və sərhədlərin toxunulmamazlığı prinsipləri prioritet təşkil edir. Lakin Ermənistanla Yunanıstan arasında çox yaxın münasibətlər var və Yunanıstan “erməni soyqırımını” rəsmi şəkildə tanıyan dövlətdir. Buna görə də, Yunanıstan-Azərbay-

can münasibətlərinin akademik səviyyədə araşdırılması Azərbaycan siyasətşünaslığı üçün çox önəmlidir.

**Açar sözlər:** Yunanıstan, parlamentlərarası münasibətlər, Dağlıq Qarabağ münaqişəsi, parlament diplomatiyası, parlamentlərarası əlaqələr üzrə işçi qrupu, qanunvericilik hakimiyyəti, parlamentlərarası dostluq qrupu

## АРМЯНО-АЗЕРБАЙДЖАНСКИЙ НАГОРНО-КАРАБАХСКИЙ КОНФЛИКТ В МЕЖПАРЛАМЕНТСКИХ ОТНОШЕНИЯХ МЕЖДУ АЗЕРБАЙДЖАНОМ И ГРЕЦИЕЙ

### РЕЗЮМЕ

В данной статье рассматривается ситуация по армяно-азербайджанскому нагорно-карабахскому конфликту, которая является одной из основных тем обсуждения на встречах по развитию межпарламентских отношений между Азербайджаном и Грецией. В Милли Меджлисе Азербайджанской Республики действует азербайджано-греческая рабочая группа по межпарламентским связям, а в греческом законодательном органе функционирует греко-азербайджанская группа дружбы по межпарламентским связям. В рамках регулярных встречах межпарламентских групп помимо других вопросов одним из основных направлений обсуждения является армяно-азербайджанский нагорно-карабахский конфликт. Основная цель исследования - обобщить мнения, высказанные в ходе межпарламентских дипломатических встреч относительно армяно-азербайджанского нагорно-карабахского конфликта, поставить их в хронологические рамки и выявить некоторые факторы, которые подрывают азербайджано-греческие межпарламентские отношения. Единодушное мнение греческих парламентариев заключается в том, что армяно-азербайджанский нагорно-карабахский конфликт должен быть урегулирован в соответствии с международным правом. Греция привержена принципам, изложенным в Заключительном акте от 1 августа 1975 года Хельсинкской конференции по безопасности и сотрудничеству в Европе. Кроме того, принципы территориальной целостности и нерушимости границ, которые являются основными принципами международного права, являются приоритетными во внешней политике Греции. Однако между Арменией и Грецией существуют очень тесные отношения, и Греция является государством, которое официально признает "геноцид армян". Поэтому изучение греко-азербайджанских отношений на академическом уровне очень важно для азербайджанской политологии.

**Ключевые слова:** Греция, межпарламентские связи, нагорно-карабахский конфликт, парламентская дипломатия, рабочая группа по меж-

парламентским связям, законодательная власть, межпарламентская группа дружбы

## THE ARMENIAN-AZERBAIJANI NAGORNO-KARABAKH CONFLICT IN THE INTERPARLIAMENTARY RELATIONS BETWEEN AZERBAIJAN AND GREECE

**ABSTRACT**

This article deals with the situation on the Armenian-Azerbaijani Nagorno-Karabakh conflict, which is one of the main topics of discussion during the meetings on the development of inter-parliamentary relations between Azerbaijan and Greece. An Azerbaijani-Greek working group on inter-parliamentary relations operates in the Milli Majlis of the Republic of Azerbaijan, and a Greek-Azerbaijani friendship group on inter-parliamentary relations functions in the Greek legislative body. In the framework of regular meetings of inter-parliamentary groups, among other issues, one of the main areas of discussion is the Armenian-Azerbaijani Nagorno-Karabakh conflict. The main goal of the study is to summarize the opinions voiced in the inter-parliamentary diplomatic meetings regarding the Armenian-Azerbaijani Nagorno-Karabakh conflict, put them in a chronological framework and identify some factors that undermine Azerbaijani-Greek inter-parliamentary relations. The unanimous opinion of Greek parliamentarians is that the Armenian-Azerbaijani Nagorno-Karabakh conflict must be resolved in accordance with international law. Greece is committed to the principles outlined in the Final Act of August 1, 1975 of the Helsinki Conference on Security and Cooperation in Europe. In addition, the principles of territorial integrity and inviolability of borders, which are the basic principles of international law, are the priority in Greek foreign policy. However, Armenia and Greece have very close relations, and Greece is a state that officially recognizes the "Armenian genocide". Therefore, studying the Greek-Azerbaijani relations at the academic level is very important for Azerbaijani political science.

**Keywords:** Greece, inter-parliamentary relations, Nagorno-Karabakh Conflict, Parliamentary Diplomacy, Working Group on Interparliamentary Relations, Legislative Power, Inter-Parliamentary Friendship Group

**Giriş**

Yunanıstan, məlum olduğu kimi, Qərb sivilizasiyasının, tarix və fəlsəfənin beşiyi kimi tanınır. Demokratiyanın vətəni də Qədim Yunanıstan hesab olunur. Yunan dilində “demos” xalq, “kratos” isə hakimiyyət deməkdir. Müasir Yunanıstanda demokratik ənənələrə sadiq qalaraq, antik dövrdən qalan bu mirası davam etdirməyə çalışırlar. Yunanıstan ötən əsrin 50-ci illərinin əvvəllərində

(1952-ci ildən etibarən) Şimali Atlantika Müqaviləsi Təşkilatına (NATO), 80-ci illərin əvvəllərində (1981-ci ildən etibarən) Avropa Birliyinə üzv olması ilə Avratlantik strukturlarında öz yerini xeyli dərəcədə möhkəmlətmişdir. Yunanıstanın coğrafi cəhətdən Balkan yarımadasında və Avropanın cənub-şərqində yerləşməsi, eyni zamanda Asiya və Afrikanın kəsişmə nöqtəsində olması onun geosiyasi əhəmiyyətini daha da artıran amillərdən hesab olunur.

İki Cənubi Qafqaz ölkəsi arasında münaqişə 1988-ci ildə Ermənistanın Azərbaycana qarşı ərazi iddiası irəli sürməsi zəminində yaranıb. 1991-ci ilin dekabrında, Şuşa və Xocalı istisna olmaqla, Dağlıq Qarabağ Azərbaycanın nəzarətindən çıxıb. 1992-1993-cü illərdə Şuşa, Xocalı və Dağlıq Qarabağa bitişik yeddi rayon işğal olunub. 1994-cü ilin mayında tərəflər atəşkəs rejiminə dair razılaşma əldə ediblər və o vaxtdan bəri, ATƏT-in Minsk qrupunun himayəsi altında, Rusiya, Fransa və ABŞ-ın həmsədrliyi ilə hələ də nəticəsiz sülh danışıqları aparılır.

BMT Təhlükəsizlik Şurası tərəfindən Azərbaycanın işğal olunmuş ərazilərinin azad edilməsi, qaçqınların və məcburi köçkünlərin doğma yurdlarına qaytarılması haqqında dörd qətnamə qəbul edilmişdir. Ermənistanın təcavüzkar siyasəti ATƏT, Avropa Şurası Parlament Assambleyası, İslam Əməkdaşlıq Təşkilatı və digər nüfuzlu beynəlxalq təşkilatlar tərəfindən qəbul edilmiş qərar və qətnamələrdə pislənmişdir. Təəssüf ki, bu qərar və qətnamələr hələ də kağız üzərində qalır. Beynəlxalq ictimaiyyətin tələblərinə məhəl qoymayan Ermənistan işğal altındakı Azərbaycan ərazilərində qanunsuz fəaliyyətini davam etdirməkdədir. ATƏT-in Minsk qrupunun vasitəçiliyi ilə 20 ildən artıqdır davam edən danışıqlar prosesi hələ də heç bir nəticə verməmişdir.

Yunanıstan Respublikası Azərbaycan Respublikasının müstəqilliyini 31 dekabr 1991-ci ildə tanımışdır. Ölkələr arasında diplomatik münasibətlər 2 aprel 1992-ci ildə qurulmuşdur. Yunanıstan Respublikasının Azərbaycan Respublikasındakı səfirliyi 27 may 1993-cü ildə fəaliyyətə başlamışdır. Azərbaycan Respublikasının Yunanıstan Respublikasındakı səfirliyi isə 16 aprel 2004-cü ildə təsis edilmişdir [6]. Azərbaycanın regiondakı nüfuzunu nəzərə alaraq, Yunanıstan Cənubi Qafqazda ilk səfirliyini Azərbaycanda açmışdır. O vaxtdan etibarən iki dövlət arasında siyasi, iqtisadi və mədəni sahələrdə əməkdaşlıq inkişaf edir. Hazırda Azərbaycan ilə Yunanıstan arasında siyasi sahədə münasibətlər genişlənməkdə davam edir. İki dövlət arasında münasibətlərin inkişafında dövlət və hökumət başçılarının səfərləri və imzalanan sənədlərin çox mühüm rolu olmuşdur. Son illər dövlətlər arasında imzalanmış mühüm sənədlər əməkdaşlıq üçün yeni imkanlar açır.

Yunanıstanın ölkəmizin ərazi bütövlüyünü tanıması və Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüquq normaları çərçivəsidə həll edilməsinə tərəfdar olması Yunanıstanın dövlət və hökumət nümayəndələri tərəfindən dəfələrlə bəyan olunub. Azərbaycan və Yunanıstan arasında siyasi

münasibətlərdə parlamentlərarası diplomatiyanın böyük əhəmiyyəti vardır. Müasir dövrdə Azərbaycan-Yunanıstan parlamentlərarası münasibətlərinin inkişafının araşdırılması mühüm aktuallıq kəsb edir. Bu məqalədə Azərbaycan və Yunanıstan arasında parlamentlərarası münasibətlərdə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinə və ikitərəfli münasibətlərdə parlamentlərarası diplomatiya prizmasından bu problem ətrafında yaranan vəziyyətə nəzər salmağa çalışacağıq.

**Yunanıstan parlamentinin siyasi quruluşu, strukturu və partiyaların mövqeyi**

Yunanıstan respublika idarəetmə formasına malik demokratik, hüquqi dövlətdir. Yunanıstanın Konstitusiyası 1975-ci ilin 11 iyun tarixindən qüvvədədir. Ən yüksək qanunverici hakimiyyət orqanı 300 yerdən ibarət bir palatalı parlamentdir. Parlament seçkiləri 4 ildə bir dəfə keçirilir, birbaşa və gizlidir. Seçki hüququ 18 yaşdan yuxarı vətəndaşlara verilir. Parlament çoxluğu Baş Nazirin rəhbərlik etdiyi hökumət yaratmaq hüququ qazanır. Parlament 5 il müddətinə dövlət başçısını – Prezidenti seçir. İcra hakimiyyətini Prezident və hökumət həyata keçirir. Prezidentin səlahiyyətləri məhduddur, siyasətdə birbaşa və fəal iştirak etmir. Hökumətə Baş Nazir, nazir və portfelsiz nazirlər daxildirlər [10, s. 193]. Prezident parlamentin fövqəladə sessiyalarını çağırmaq səlahiyyətinə malikdir. Konstitusiyaya görə bu sessiyalar respublika prezidentinin seçkiləri, etimad rəyinin tətbiqi və s. məsələlərlə bağlı ola bilər.

Yunanıstan parlamentinə seçkilərin qaydası, parlamentin çağırılması, buraxılması, onun təşkilinin prinsipləri və funksiyaları, səlahiyyətləri və siyasi rolu həm Konstitusiya ilə, həm də parlament Reqlamenti ilə müəyyən olunur. Parlament deputatları, xalqın təmsilçiləri olaraq, parlamentdə məhdudiyyətsiz şəxsi fikir söyləmək və səsvermə hüququna malikdirlər. Həmçinin deputatlar onların statusundan irəli gələn bir sıra imtiyazlara malikdirlər: deputat öz səlahiyyətlərini yerinə yetirməsi prosesində öz fikrini söylədiyinə və səs verdiyinə görə məsuliyyətə cəlb edilə bilməz [16, s. 67-68].

Yunanıstanda ölkənin siyasi həyatına təsir edən siyasi partiyaların böyük rolu vardır. Yunanıstanın hazırki Konstitusiyası siyasi partiyaların yaradılması məsələsində vətəndaşlara tam azadlıq verir, bir qeyd-şərtlə ki, partiyalar demokratik quruluşun azad fəaliyyət göstərməsinə xidmət etməlidirlər. Bundan əlavə, partiyaların fəaliyyətinin dövlət tərəfindən maliyyələşdirilməsinin mümkünlüyü nəzərdə tutulur və bu da xüsusi qanunla tənzimlənir. Siyasi quruluşun demokratik xarakterini saxlamaq və dövlət orqanlarının partiya orqanları ilə qarışmasının qarşısını almaq məqsədilə, Konstitusiya dövlət qulluqçularının və hərbçilərin siyasi fəaliyyətini, o cümlədən, onların siyasi partiyalarda iştirakını məhdudlaşdırır [12, s.103-104].

Yunanıstanın partiya sistemi formal göstəricilərə görə çoxpartiyalı sistemidir: son 30 ildə parlament seçkilərində, bir qayda olaraq, 10-a yaxın partiya

iştirak edir. Lakin bu partiyalardan yalnız ikisi – PASOK (Ümumyunan Sosialist Hərəkatı) və Yeni Demokratiya siyasi qərarların qəbul edilməsi prosesinə təsir göstərir, ona görə də bu sistemin ikipartiyalılığa yaxınlaşdığını söyləmək olar. Ölkədə partiya fəaliyyəti ənənələrinin uzunmüddətli tarixinin olmasına baxmayaraq, hazırkı partiyaların əksəriyyəti nisbətən gəncdir, onların yaşı 45 ildən artıq deyil.

Siyasi temperamentinə görə yunan partiyalarını aşağıdakı şəkildə təsnifləşdirə bilərik: ifrat sol cəbhədə radikal marksist qruplar yerləşir, onlardan bir qədər sağda – daha mötədil “Yunanıstan Kommunist Partiyası”, daha sonra “Sol və Tərəqqi İttifaqı”, “Demokratik Sosial Hərəkat” (DİKKİ) və sol-mərkəzçi “Ümumyunan Sosialist Hərəkatı” (PASOK) gəlir. Mərkəzdən bir qədər sağda “Yeni Demokratiya” yerləşir, ondan sağda isə, “Liberal partiya” və “Siyasi Bahar” yerləşir. Nəhayət, ifrat sağ cəbhədə millətçi “Yunan cəbhəsi” və “Qızıl Şəfəq” qərarlaşıb [15, s. 49].

Yunanıstan parlamenti insanlar arasında daha güclü əməkdaşlıq etmək naminə “körpülər” qurmaq, insanların yaxınlaşmasını, onların fikir mübadiləsini təşviq etmək, dostluq münasibətlərini yaratmaq və Yunanıstanın xaricdəki imicini təbliğ etmək üçün parlament diplomatiyasına böyük önəm verir [8]. Yunanıstanın NATO Parlament Assambleyasında, ATƏT-in Parlamentin Assambleyasında, Beynəlxalq Parlamentlərarası İttifaqda (BPİ), Avropa Şurası Parlament Assambleyasında (AŞPA), Pravoslav Parlamentlərarası Assambleyada nümayəndə heyəti var [9].

Yunanıstan parlamentinin strukturunun, fəaliyyətinin və reqlamentinin öyrənilməsi bu hakimiyyət budağının müstəqilliyini, onun qanunvericilik və nəzarət funksiyalarının həyata keçirilməsi prosesindəki geniş səlahiyyətlərini görməyə imkan verir. Yunanıstan parlamentinin bütün strukturlarının koordinasiyalı fəaliyyəti ölkənin sabit və demokratik inkişafının ən mühüm amillərindən biridir.

**Parlamentlərarası münasibətlərdə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi**

Müasir dövrdə Azərbaycanla Yunanıstan arasında parlamentlərarası münasibətlər uğurla inkişaf edir. Azərbaycan Respublikası Milli Məclisinin 5 dekabr 2000-ci il tarixli, 24-IIQR nömrəli qərarı ilə Azərbaycan-Yunanıstan parlamentlərarası əlaqələr üzrə işçi qrupu yaradılmışdır [4].

2015-ci il 1 noyabr tarixində keçirilmiş parlament seçkilərindən sonra Milli Məclisdə Azərbaycan-Yunanıstan parlamentlərarası dostluq qrupunun yeni tərkibi təsdiq olunmuşdur. Azərbaycan və Yunanıstanın parlamentində fəaliyyət göstərən parlamentlərarası qruplar ikitərəfli münasibətlərin möhkəmləndirilməsində xüsusi rol oynayır. Dostluq qruplarının əsas məqsədi Yunanıstan Respublikasının parlamentinin və Azərbaycan Respublikasının Milli Məclisinin deputatlarının daha yaxından tanışlığı, dövlətlər arasında əlaqələrin möh-

kəmləndirilməsinə səbəb olan parlamentlərarası dialoqların, görüşlərin, danışıqların və müzakirələrin keçirilməsidir. Milli Məclisin üzvləri dostluq qrupları vasitəsilə Azərbaycanla bağlı mühüm məsələləri və digər informasiyaları digər həmkarlarına çatdırırlar. Eyni zamanda, dostluq qrupları ölkənin ən ağrılı problemi olan Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi nəticəsində torpaqlarımızın 20%-nin işğal olunması ilə bağlı həqiqətləri dünya ictimaiyyətinə parlament diplomatiyası vasitəsilə çatdırmaqda yardımçı olur.

Azərbaycan Respublikası Milli Məclisinin 4 mart 2016-cı il tarixli, 161-VQR nömrəli qərarı ilə Azərbaycan-Yunanıstan parlamentlərarası əlaqələr üzrə işçi qrupuna I-V çağırış Azərbaycan Respublikası Milli Məclisinin deputatı, Əmək və sosial siyasət komissiyasının sədri Hadi Rəcəbli rəhbərlik edir [3]. 2007-ci il 23 yanvar tarixində Milli Məclisin Sosial siyasət daimi komissiyanın sədri, Yunanıstan parlamenti ilə dostluq qrupunun rəhbəri Hadi Rəcəbli Yunanıstan-Azərbaycan parlamentlərarası dostluq qrupunun sədri Harakopoulos Maximos ilə görüşdə Azərbaycanın dövlət müstəqilliyini ilk tanıyan ölkələr sırasında olan Yunanıstanla siyasi, iqtisadi, mədəni sahələrdə əməkdaşlığın inkişaf etdiyi vurğulanıb. Görüşdə H.Rəcəbli ölkəmizin üzləşdiyi problemə də diqqət çəkib. Ermənistanın təcavüzkar siyasəti nəticəsində torpaqlarımızın 20 faizinin işğal olunduğu, Azərbaycan tərəfinin münaqişənin beynəlxalq hüquq normaları çərçivəsində, Azərbaycanın ərazi bütövlüyünün qorunması şərtilə həllinə tərəfdar olduğu Yunanıstan-Azərbaycan parlamentlərarası dostluq qrupunun sədrinin diqqətinə çatdırılıb. Nümayəndə heyətinin rəhbəri Harakopoulos Maximos Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı bildirib ki, Yunanıstan dövləti məsələnin beynəlxalq hüquq normaları çərçivəsində, sülh yolu ilə həllinə tərəfdardır [19, s. 4].

2007-ci il yanvarın 24-də Yunanıstan-Azərbaycan parlamentlərarası dostluq qrupunun sədri Harakopoulos Maximosun başçılıq etdiyi nümayəndə heyətini qəbul edən Milli Məclisin Sədri Oqtay Əsədov Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı Yunanıstanın sərhədlərin toxunulmazlığı prinsipini dəstəklədiyi və bu münaqişənin sülh yolu ilə həllinə tərəfdar olduğu üçün məmnunluğunu bildirib: "Əfsuslar olsun ki, BMT və Avropa Şurasının işğalçı qoşunların Azərbaycan torpaqlarını tərk etmələrinə dair qəbul etdiyi qətnamələrə Ermənistan tərəfindən məhəl qoyulmur. Ermənistan beynəlxalq hüquq normalarından olan sərhədlərin pozulmazlığı prinsipinə qarşı çıxır. Çox şadıq ki, Yunanıstan sərhədlərin toxunulmazlığı prinsipini dəstəkləyir və bu münaqişənin sülh yolu ilə həllinə tərəfdar çıxır. Bu münaqişə regionun inkişafında və Avratlantik məkana inteqrasiyasında ən böyük maneədir. NATO Parlament Assambleyasının Kanadada keçirilən sessiyasında da postsovet ölkələrdəki münaqişələrin iqtisadi inkişafa maneçilik törətdiyi qeyd olunub. "Hazırda problemin həlli ilə ATƏT-in Minsk qrupu məşğuldur. Azərbaycan münaqişənin sülh yolu ilə həllinə ümidlərini hələ itirməyib. Ölkəmiz hansı yolla olursa-olsun

işğal altında olan torpaqlarını azad edəcək. Ermənistan ikinci erməni dövlətini yaratmağa cəhd göstərsə də, öz müstəqilliyini təmin edə bilməyib. Bu ölkə özünü Cənubi Qafqazdakı transmilli layihələrdən də məhrum edib. Münaqişə nə qədər tez həll olunsa, Ermənistanın xeyrinə olar. Amma Ermənistan rəhbərliyi bunu anlaya bilmir [2, s. 3].

Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin ATƏT-in prinsipləri əsasında sülh yolu ilə danışıqlar vasitəsi ilə həlli üçün yaradılmış qurum olan Minsk qrupunun vasitəçilik missiyası və fəaliyyəti uğursuzluqlarla nəticələnməkdə davam edir. 2008-ci il noyabrın 19-da Milli Məclisin Sədri Oqtay Əsədov Yunanıstan Respublikasının ATƏT-dəki daimi nümayəndəsi, səfir Mara Marinakinin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüş əsnasında 2009-cu ildə Yunanıstanın ATƏT-ə sədrlik edəcəyini nəzərə alaraq Ermənistan-Azərbaycan Dağlıq Qarabağ problemi ilə bağlı fikirlərini qonaqla bölüşüb. Problemin həlli ilə ATƏT-in Minsk qrupunun məşğul olduğunu deyən Milli Məclisin Sədri bununla belə, Minsk qrupunun həmsədrlərinin bəzən məsuliyyətsiz bəyanatlar verməsini təəssüf hissi ilə diqqətə çatdırıb. Oqtay Əsədov bildirdi ki, belə məsuliyyətsiz bəyanatlar Dağlıq Qarabağ probleminin həllinə maneçilik törədə bilər. Sədr Yunanıstanın ATƏT-ə sədrliyi dövründə Dağlıq Qarabağ münaqişəsinin nizamlanmasında diqqəti artıracağına ümidvar olduğunu bildirib [13, s. 2].

2009-cu il mayın 7-də ölkəmizdə səfərdə olan Yunanıstan-Azərbaycan parlamentlərarası əlaqələr üzrə işçi qrupunun üzvləri ilə Milli Məclisin Sədri Oqtay Əsədov arasında keçirilmiş görüşdə Dağlıq Qarabağ münaqişəsinin həlli yolları ətrafında fikir mübadiləsi aparılıb [18, s. 2]. Yunanıstan-Azərbaycan parlamentlərarası əlaqələr üzrə dostluq qrupunun rəhbəri Konstantinos Tsiaras Dağlıq Qarabağ münaqişəsinin tezliklə həll ediləcəyinə inandığını və bu problemin həll olunmasının regionun təhlükəsizliyi üçün önəmli olduğunu bildirib: “Biz Dağlıq Qarabağ probleminin ATƏT-in Minsk qrupu çərçivəsində həll ediləcəyinə inanırıq” [20].

2014-cü il martın 17-də Azərbaycan Respublikasının Baş nazirinin keçmiş müavini, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sabiq sədri Əli Həsənov Yunanıstan parlamentinin deputatı, Avropa Şurası Parlament Assambleyasının üzvü Marias Epameinondas ilə görüşdə Ə.Həsənov avropalı deputata Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi, problemin tarixi və ölkəmizdəki qaçqın və məcburi köçkünlərin vəziyyəti haqqında məlumat vermişdir. Bildirilmişdir ki, son 200 ildə Cənubi Qafqaz regionunda gedən mürəkkəb siyasi proseslər nəticəsində azərbaycanlıların bir neçə dəfə öz əzəli yurdlarından zorla köçürülməyə, etnik təmizləmə və deportasiya siyasətinə məruz qalmışlar. Ermənistanın silahlı qüvvələrinin Azərbaycana hərbi təcavüzü nəticəsində torpaqlarımızın 20 faizinin – Dağlıq Qarabağ regionunun və ona bitişik yeddi inzibati rayonun işğal olunduğu, bir milyondan artıq soydaşımızın qaçqın və məcburi köçkünə çevrildiyini, milli-mədəni sərvətlərimizin ta-

lan edildiyi, bütün infrastrukturun dağıdıldığını qonağın diqqətinə çatdırılmışdır. O da vurğulanmışdır ki, ötən dövrdə Ermənistanın iqtisadiyyatı daha da ağır duruma düşmüş, əhali ölkəni sürətlə tərk etməyə başlamış, Azərbaycanın iştirakı ilə reallaşdırılan beynəlxalq və regional layihələrdən kənarda qalmışdır. Lakin bu münaqişə olmasaydı, onlar həyata keçirilən bu layihələrdən faydalanaraq iqtisadiyyatlarını ağır durumdan çıxara bilərdilər [1, s.2]. Yunanıstan parlamentinin deputatı Marias Epameinondas bildirmişdir ki, ölkəsi bir çox hallarda beynəlxalq tədbirlərdə Azərbaycanın haqlı mövqeyini dəstəkləyir. Marias Epameinondas Ermənistanın Azərbaycana qarşı təcavüzü və doğma yurdlarından qovulmuş azərbaycanlı qaçqın və məcburi köçkünlərin problemlərindən xəbərdar olduqlarını söyləmişdir. O, Ermənistanın BMT Təhlükəsizlik Şurası tərəfindən qəbul edilmiş qətnamələri yerinə yetirilməməsinin təəssüf doğurduğunu vurğulamış, Azərbaycanın ədalətli mövqeyini dəstəkləyəcəklərini söyləmişdir. Azərbaycanın müstəqilliyinin bərpasından keçən qısa müddətdə dinamik inkişaf etdiyini deyən yunanıstanlı deputat bildirmişdir ki, ölkəsi Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həlli istiqamətində səylərini daha da artıracaqdır [7].

**Parlamentlərarası münasibətlərə kölgə salan səfərlər**

Azərbaycan Respublikasının rəsmi mövqeyinə görə, ölkəmizin işğal edilmiş ərazilərinə qanunsuz səfər edən xarici ölkə vətəndaşları Xarici İşlər Nazirliyinin arzuolunmaz şəxslər siyahısına salınır. Eyni zamanda, Azərbaycan Respublikasının beynəlxalq tanınmış sərhədləri çərçivəsində ölkəmizin ərazi bütövlüyünə və suverenliyinə, habelə ölkəmizin qanunlarına hörmət edilməsinə çağırış olunur və işğal edilmiş ərazilərə səfər edən xarici ölkə vətəndaşlarının beynəlxalq hüququn əsas norma və prinsiplərinə əməl etməsi tövsiyə edilir.

Xarici İşlər Nazirliyinin tərtib etdiyi Azərbaycan Respublikasının işğal edilmiş ərazilərinə qanunsuz səfər etmiş xarici ölkə vətəndaşlarının 02 sentyabr 2019-cu ilə müvafiq olan arzuolunmaz 852 şəxsdən ibarət olan siyahıda Yunanıstan Respublikasının 4 vətəndaşı var. Təəsüflər olsun ki, bu siyahıdakı 2 şəxs Yunanıstan parlamentinin deputatıdır. Bunlardan Anastasios Nerantzis 2010-cu ildə, Qarifallia (Liana) Kanelli isə 2016-cı ildə Azərbaycanın işğal edilmiş ərazilərinə səfər ediblər [5].

2016-cı il 11 aprel tarixində Yunanıstan parlamentinin üzvü Qarifallia Kanellinin Azərbaycanın işğal olunmuş ərazilərinə qanunsuz səfəri Azərbaycanın mətbuatında geniş işıqlandırılmışdır. Çünki Azərbaycanın işğal olunmuş ərazilərinə səfər edən yunanıstanlı deputat qondarma rejimin başçısı Bako Saakyanla görüşüb.

Azərbaycan XİN-in mətbuat xidmətinin sabiq rəhbəri Hikmət Hacıyev bildirib ki, Yunanıstan parlametinin üzvü Qarifallia Kanellinin beynəlxalq hüquqa zidd olaraq Ermənistan tərəfindən Azərbaycan ərazilərinin işğalı, işğal olunmuş ərazilərdə bir milyondan artıq azərbaycanlının etnik təmizləməyə mə-

ruz qalması, Ermənistan silahlı qüvvələrinin son təxribatları və mülki insanlar arasında ölüm və yaralanma halları ilə nəticələnəcək qoşunların təmas xətti boyunca yaşayan Azərbaycan əhalisini ağır artilleriyadan atəşə tutması və törətdiyi digər müharibə cinayətlərinə göz yumaraq 11 aprel tarixində Azərbaycanın işğal olunmuş ərazilərinə qanunsuz səfərini qərəzli və təhrikçi yanaşma kimi qiymətləndiririk [14]. Bu səfər ilə əlaqədar olaraq H.Hacıyev deyib ki, Yunanıstan Ermənistan-Azərbaycan münaqişəsinin beynəlxalq hüququn norma və prinsipləri əsasında danışıqlar yolu ilə həllinə dair mövqeyinə və ölkələrimizin qanunverici orqanları arasında olan əməkdaşlığın ruhuna zidd olaraq bu kimi birtərəfli addımın atılması Ermənistanın təxribatçı əməllərinin təşviqinə və onsuz da ağır olan vəziyyətin daha da gərginləşməsinə xidmət edir: "Ölkələrimiz arasında mövcud olan dostluq və qarşılıqlı anlaşmadan çıxış edərək, sözügedən məsələ ilə əlaqədar Yunanıstandakı səfirliyimiz Azərbaycanın narahatlığını Yunanıstanın aidiyyəti dövlət orqanlarına çatdıracaqdır" [11].

XİN rəsmisinin bu çıxışından dərhal sonra Yunanıstanın Azərbaycandakı səfirliyi mətbuata açıqlama verdi. Qeyd olunur ki, Yunanıstan parlamentinin bir üzvünün Dağlıq Qarabağa səfəri heç bir halda Yunanıstan hökumətinin münaqişənin beynəlxalq hüquq çərçivəsində sülh yolu ilə həllinə tərəf olan və dəyişməyən rəsmi mövqeyini əks etdirmir [17]. Açıqlamada bildirilir: "Yunanıstan Respublikasının səfirliyi dünyanın istənilən yerində Parlament üzvlərinin institusional baxımdan sərbəst hərəkət etmək üstünlüyünə malik olduqlarını və hər hansı bir təlimata tabe olmadıqlarını bildirmək istərdi. Yunanıstan ilə Azərbaycan arasında münasibətlər çox yüksək səviyyəyə çatıb və hər iki tərəfdən belə hərəkətlərlə təhlükə altına salına bilməz" [21].

**Nəticə**

Azərbaycanın xarici siyasətində prioritet istiqamətlərdən biri Avratlantik məkana inteqrasiyadır. Avropa İttifaqının və NATO-nün üzvü olan Yunanıstanın bu qurumlardakı təcrübəsindən yararlanmaq və onun dəstəyinə nail olmaq üçün ikitərəfli münasibətlərdə intensivliyin daha da artırılması arzuolunandır.

Azərbaycan və Yunanıstan arasında parlamentlərarası diplomatiya sahəsində keçirilən bütün görüşlər zamanı Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi müzakirə olunur və Azərbaycan tərəfinin mövqeyi yunanıstanlı həmkarlarına çatdırılır. İnformasiya müharibəsində qalib gəlmək üçün hər iki ölkənin qanunverici orqanında fəaliyyət göstərən dostluq qrupları arasında əlaqələrin intensivləşdirilməsi və müntəzəm görüşlərin keçirilməsi mühüm əhəmiyyət kəsb edir. Yunanıstan sürətlə inkişaf edən Azərbaycan ilə əlaqələrin inkişafında maraqlıdır və bunun üçün yaxşı imkanlar var. Qarşılıqlı səfərlər ikitərəfli əlaqələrin inkişafına təkan verən başlıca amildir.

Yunanıstan və Azərbaycan arasında Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı başlıca ortaq cəhət ondan ibarətdir ki, Yunanıstan suverenlik, dövlətlərin ərazi bütövlüyü və sərhədlərin toxunulmamazlığı prispinə

hörmətlə yanaşır. İkitərəfli və çoxtərəfli münasibətlərdə bu faktorun daha çox qabardılması zərurəti vardır.

Müxtəlif dövrlərdə Azərbaycan Respublikasının işğal edilmiş ərazilərinə qanunsuz səfər edən Yunanıstan parlamentinin deputatlarının qərəzli və təhrikçi hərəkətləri ikitərəfli münasibətlərə böyük zərbə vurur. Buna görə də, iki ölkənin parlamentariləri arasında keçirilən görüşlərdə bu cür səfərlərin törədə biləcəyi nəticələr barədə geniş məlumat vermək və gələcəkdə Azərbaycanın ərazi bütövlüyünü şübhə altına alacaq bu cür qanunsuz səfərlərdən çəkindirmək üçün genişmiqyaslı və məqsədyönlü fəaliyyət aparmaq lazımdır.

**Ədəbiyyat:**


1. Avropalı deputat Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi barədə məlumatlandırılmışdır // “Azərbaycan” qəzeti, № 57 (6623) 18 mart 2014-cü il
2. Azərbaycanla Yunanıstan arasında əlaqələr sürətlə inkişaf edir // “Azərbaycan” qəzeti, № 15 (4532) 25 yanvar 2007-ci il
3. “Azərbaycan Respublikası Milli Məclisinin parlamentlərarası əlaqələr üzrə işçi qruplarının rəhbərlərinin seçilməsi haqqında” Azərbaycan Respublikası Milli Məclisin qərarı // http://e-qanun.az/framework/32253 [Müraciət tarixi: 11.10.2019].
4. “Azərbaycan Respublikası Milli Məclisinin parlamentlərarası əlaqələr üzrə işçi qruplarının yaradılması haqqında” Azərbaycan Respublikası Milli Məclisinin qərarı // http://e-qanun.az/framework/14761 [Müraciət tarixi: 11.10.2019]
5. Azərbaycan Respublikasının işğal edilmiş ərazilərinə qanunsuz səfər etmiş xarici ölkə vətəndaşlarının siyahısı //http://www.mfa.gov.az/folder/file/qanunsuz_seferler.pdf [Müraciət tarixi: 11.10.2019]
6. Azərbaycan-Yunanıstan münasibətləri //http://www.mfa.gov.az/files/file/Azerbaycan_-_Yunanistan_munasibetleri_14.08.2014.pdf [Müraciət tarixi: 11.10.2019]
7. Deputat: Yunanıstan Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həlli istiqamətində səylərini daha da artıracaq //https://az.trend.az/azerbaijan/karabakh/2253830.html [Müraciət tarixi: 11.10.2019]
8. Διεθνείς Δραστηριότητες. Διεθνές Περιβάλλον // https://www.hellenicparliament.gr/Diethneis-Drastiriotites/Diethnes-Perivallon/ [Müraciət tarixi: 11.10.2019]
9. Διεθνείς Δραστηριότητες: Διεθνές Περιβάλλον. Διεθνείς Κοινοβουλευτικές Συνελεύσεις

//https://www.hellenicparliament.gr/Diethneis-Drastiriotites/Diethnes-Perivallon/DiethneiskoinovouleftikesSynelefseis/ [Müraciət tarixi: 11.10.2019]
10. Энциклопедия стран мира / Глав. ред. Н.А. Симония; ред. кол. В.Л. Макаров, А.Д. Некипелов, Е.М. Примаков; предисл. Н.А. Симонии; НПО "Экономика", РАН, отд-ние обществ. наук. – М: ЗАО "Издательство "Экономика", 2004 - 1320 с.
11. Hikmət Hacıyev: "Səfirliklərimiz ölkənin narahatlığını Latviya və Yunanıstanın dövlət orqanlarına çatdıracaq" //https://salamnews.org/az/news/read/215039 [Müraciət tarixi: 11.10.2019]
12. Məmmədova A. Yunanıstanda siyasi partiyaların fəaliyyəti / "Müasir Yunanıstan: Tarix, siyasət, iqtisadiyyat, mədəniyyət" elmi-praktik tələbə konfransının materialları, Bakı, 5 iyun 2004-cü il. s. 103-107
13. Milli Məclisdə görüş // "Azərbaycan" qəzeti, № 260 (5071) 20 noyabr 2008-ci il
14. Onların qanunsuz səfəri qərəzli və təhrikçidir - XİN // https://qafqazinfo.az/news/detail/onlarin-qanunsuz-seferi-qerezli-ve-tehrikcidir-xin-143885 [Müraciət tarixi: 11.10.2019]
15. Петрунина О.Е. Политическая система современной Греции – Москва, 1999 – 141 с.
16. Rzayev S. Yunanıstan parlamentinin təşkili və fəaliyyəti / "Müasir Yunanıstan: Tarix, siyasət, iqtisadiyyat, mədəniyyət" elmi-praktik tələbə konfransının materialları, Bakı – 5 iyun 2004-cü il. s. 67-73
17. Yunan deputatın qanunsuz hərəkətinə Bakıdakı səfirlikdən açıqlama // https://olaylar.az/news/dunya/171384 [Müraciət tarixi: 11.10.2019]
18. Yunanıstan Azərbaycanla əlaqələrin inkişafında maraqlıdır // "Azərbaycan" qəzeti, № 99 (5203) 8 may 2009-cu il
19. Yunanıstan Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüquq normaları çərçivəsində həllinə tərəfdardır // "Azərbaycan" qəzeti, № 14 (4531) 24 yanvar 2007-ci il
20. Yunanıstan Parlamenti Dağlıq Qarabağ probleminin tezliklə həll ediləcəyinə inanır // https://az.trend.az/azerbaijan/karabakh/1467789.html [Müraciət tarixi: 11.10.2019]
21. Yunanıstan səfirliyi: Parlament üzvünün Qarabağa səfəri hökumətin rəsmi mövqeyini əks etdirmir // https://musavat.com/news/yunanistan-sefirliyi-parlament-uzvunun-qarabaga-seferi-hokumetin-resmi-movqeyini-eks-etdirmir_339491.html [Müraciət tarixi: 11.10.2019]

**MÜƏLLİFLƏRİN NƏZƏRİNƏ!**

1. Qərbi Kaspi Universitetinin Elmi xəbərlər jurnalında əvvəllər nəşr olunmamış orijinal əsərləri və müəllifin tədqiqat sahəsi üzrə yazılmış icmal məqalələri qəbul edir.
2. Məqalələr ingilis, azərbaycan, rus dillərində qəbul edilir.
3. Yazılar Microsoft Word yazı proqramında, (journal@wu.edu.az) ünvanına göndərilməlidir. Göndərilən məqalələrdə aşağıdakılar nəzərə alınmalıdır:
   * Məqalənin başlığı, müəllifin adı, ata adı, soyadı,
   * İş yeri,
   * Elektron ünvanı,
   * Xülasə və açar sözlər.
4. Məqalə sturuktur etibarilə xülasə, giriş, alt başlıq və ya başlıqlardan, nəticə və isifadə olunmuş ədəbiyyat siyahısından ibarət olmalıdır.
5. Məqalədə başlıq hər xülasədən əvvəl ortada, qara və böyük hərflə xülasələrin yazıldığı hər üç dildə olmalıdır.
6. Xülasə 100-150 söz aralığında olmaqla, məqalənin yazıldığı dildə və bundan əlavə yuxarıda göstərilən iki dildə olmalıdır. Məqalənin hər üç dildə yazılmış xülasəsi bir-birinin eyni olmalıdır. Açar sözlər uyğun xülasələrin sonunda onun yazıldığı dildə verilməklə ən azı üç sözdən ibarət olmalıdır.
7. Bütün məqalələrin orijinal dilindən asılı olmayaraq mütləq azərbaycan, rus və ingilis dillərində xülasələri və açar sözləri dərc edilməlidir.
8. Məqalədə UOT kodu göstərilməlidir.
9. Məqalə aşağıdakılardan ibarət olmalıdır:
   * Giriş,
   * Tədqiqat işinin müzakirəsi
   * Nəticələri
   * İstinad ədəbiyyatı rus dilində olduğu halda orijinal dili mötərizə içərisində göstərməklə yalnız latın əlifbası ilə verilməlidir.
10. Şəkil, rəsm, qrafik və cədvəllər çapda düzgün, aydın çıxacaq vəziyyətdə və mətn içərisində olmalıdır. Şəkil, rəsm və qrafiklərin yazıları onların altında yazılmalıdır. Cədvəllərdə başlıq cədvəlin üstündə yazılmalıdır.

**TO THE ATTENTION OF AUTHORS!**

1. The Journal of Western Caspian University accepts previously unpublished, research papers,
   original works and review articles written by the author in the field of research.
2. Articles are accepted in English, Azerbaijani, Russian languages.
3. Entries should be sent in Microsoft Word writing program to the address (journal@wu.edu.az). The following should be considered in the articles sent:

*The title of the article, the name, father's name and last name of the author.
*The occupation.
*E-mail address.
*Summary and key words.

4. The article must consist of introduction, sub-headings or headlines, conclusion and the list of used literature, by its structure.
5. The title of the article must be given above of every summary in the middle of the paper**, in bold** and capitalizing in three languages.
6. The summary must consist of 100-150 words and must be given in the original language and translated into two languages.
7. All three summaries must be the same in three languages.
8. The UDC code must be provided in article.
9. The article must consist of these:
   Introduction
   Description of research
   Conclusion
   The reference literature being in Russian, the source language must be indicated in brackets in Latin alphabet.
10. Pictures, drawing, graphics and tables must be in the text that clearly published. Captions must be written below the pictures, drawing and tables.

Məqalələr aşağıdakı ünvana göndərilir:
Azərbaycan, Bakı şəh., AZ 1001 İstiqlaliyyət küçəsi 27,
Qərbi Kaspi Universiteti, tel: 492-61-63;
E-mail: journal@wu.edu.az

Статьи направляются по адресу:
Азербайджан, Баку, AZ 1001 ул. Истиглалийят 27,
Университет “Western Caspian”, тел: 492-61- 63;
E-mail: journal @wu.edu.az

The articles should be sending to the following address:
27, Istiglaliyyat Str. Baku, AZ 1001 Azerbaijan
“Western Caspian” University, tel: 492-61-63;
E-mail: journal@wu.edu.az

***Formatı*** 70×100 $^{1}/_{16}$
***Həcmi*** F.ç.v. 6,5
***Sayı*** 500

Qərbi Kaspi Universitetinin nəşriyyat-poliqrafiya mərkəzində yığılmış və çap olunmuşdur.